Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

23 APREL 2020-ci il

№ 63 (4194)

Qiyməti 40 qəpik

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# LAVROVUN BƏYANATINDAN ÇIXAN BİRMƏNALI NƏTİCƏ - MÜHÜM QARABAĞ SƏNƏDİNİ İMZALAMAYAN MƏHZ ERMƏNİSTANDIR...

səh. 5

Vətəndaşlar dövlətin siyasətini izlədiklərini Prezidentə yazılan məktublardakı bu fikirlərlə bir daha nümayiş etdirirlər...

səh. 3

Türkiyənin Adana şəhərindən autik xəstə uşaq anasının Prezident Əliyevə ürəkparçalayan məktubu... Sizin o sözünüzü xatırlayan kimi...

səh. 2

Qaradağdan baş həkim səhiyyəmizdəki çoxillik işlərin nəticəsini Prezidentə belə təsvir etdi...

səh. 4

Koronavirusla mübarizə dövründə növbəti zəruri sosial dəstək addımı - adına VÖEN olan bütün vətəndaşlar 190 manat yardım alacaq

səh. 12

Azərbaycan ermənilər üçün ən ağır tələbi yenidən aktuallaşdırdı - substantiv danışıqlar bərpa olunmalıdır...

səh. 5

Bakı İrəvanı Qarabağ danışıqlarında mat vəziyyətinə salır - Lavrovun dilindən maraqlı fikirlər səsləndi...

səh. 9

Azərbaycan neft bazarının xilası üçün daha bir mühüm təşəbbüs irəli sürdü - gələn aydan neft bazarında qiymət xaosuna son qoyula bilər...

səh. 7

Pandemiyanın Ermənistanı çökdürəcək daha bir dəhşətli fəsadı üzə çıxır...

səh. 10



## Koronavirus dövründə Azərbaycanın daha bir üstünlüyü - fəal xarici investisiya qurumlarının say artımının əsasları...

səh. 12



Lavrovdan mövcud Qarabağ danışıqları formatına birmənalı dəstək - qondarma «DQR»i danışıqlara gətirmək səylərinə növbəti zərbə...

səh. 8

«Sərhədsiz Reportyorlar»ın yeni qərəzi - Azərbaycan 168-ci yerə düşürüldü...

səh. 6



Mağazaların onlayn satışı çoxalıb, ancaq yeni «bəla» gəlib - kartlardan pul oğurlanır

səh. 14

səh. 6

Ermənistan və Gürcüstan hakimiyyətləri fövqəladə vəziyyətə də əl atdılar - Azərbaycanın daha bir üstünlüyü...



səh. 8

Mnasakanyanın Lavrova qarşı uğursuz kartı - erməni XİN-in "erməni tərəflərindən heç biri" ifadəsi nə deməkdir...



səh. 13

Azərbaycanda virusdan sağalanların günbəgün say artımı dönüşü olmayan prosesə çevrilə biləcəkmi... rəylər...



səh. 14

Restoranlar mayın 4-dən sonra toy dəvətlərinə başlayıb - hardan bilirsiniz karantin uzadılmayacaq...



səh. 13

ÜST qəpik və kağız pullarla ünsiyyəti də rəsmən təhlükəli elan etdi - Nağd puldan imtina üçün daha bir təkan...





## Azərbaycanda daha 38 nəfərdə koronavirus aşkarlandı, 42 nəfər sağaldı

**Azərbaycanda koronavirus infeksiyasına 38 yeni yoluxma faktı qeydə alınıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan baki-xeber.com-a verilən məlumata görə, 42 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.**

Hazırkı dövrədək ölkəmizdə 1518 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 907 nəfər müalicə olunaraq sağalıb, 20 nəfər vəfat edib, 591 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 14 nəfərin vəziyyəti ağır, 21 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 108.221 test aparılıb.

## Azərbaycandan neftlə bağlı maraqlı təklif - "OPEC+"dan kənar istehsalçılar da öhdəlik götürsünlər

**Azərbaycanın energetika naziri Pərviz Şahbazov "OPEC+" razılaşmasında iştirak etməyən neft istehsal edən ölkələri neft hasilatının azaldılması prosesinə qoşulmağa çağırıb.**



Aprelin 21-də Pərviz Şahbazov "OPEC+" ölkələrinin iştirakı ilə qeyri-rəsmi formatda keçirilən videokonfransa qatılıb. Konfransda neft bazarının hazırkı vəziyyəti və may ayından öhdəliklərin icrası ilə bağlı məsələlər müzakirə edilib.

"OPEC+" tarixi missisiya yerinə yetirir və müvafiq öhdəliklər götürüb. İndi isə "OPEC+"dan kənar neft istehsalçıları bu prosesə fəal şəkildə qoşulmalı və öz öhdəliklərini elan etməlidirlər", - nazirlik Pərviz Şahbazovun sözlərindən sitat gətirir.

# Azərbaycan XİN-dən erməni nazirə tutarlı cavab - "Ermənistanın xarici işlər naziri utanmadan..."

**Dağlıq Qarabağ münaqişəsinin həllinə mərhələli yanaşma ATƏT-in Minsk Qrupunun bütün həmsədrləri tərəfindən dəstəklənir. Bunu Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat Xidməti İdarəsinin rəisi Leyla Abdullayeva deyib.**



"2020-ci ilin 21 aprel tarixində Rusiya Federasyasının Xarici İşlər naziri Sergey Lavrovun Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə mərhələli yanaşma ilə bağlı səsləndirdiyi məlum şərhinə gəldikdə isə, bu yanaşmanın ATƏT-in Minsk Qrupunun bütün həmsədrləri tərəfindən nümayiş etdirildiyini təsdiq edə bilərəm və bu mövqe onların özləri tərəfindən münaqişənin tənzimlənməsi prosesinin bütün mərhələlərində və bütün səviyyələrində dəfələrlə və ardıcıl olaraq səsləndirilib", - Abdullayeva bəyanatında qeyd edib. Onun sözlərinə görə, Azərbaycan ərazilərinin 20%-ni işğal edən Ermənistan XİN başçısı utanmadan təhlükəsizlik problemlərindən, müqəddəratı azad şəkildə ifadə etməkdən danışır. "Hərbi işğal şəraitində hansı təhlükəsizlikdən danışmaq olar? Bir ölkə tərəfindən digər ölkənin ərazilərinin işğalı faktının özü elə davamlı təhlükə mənbəyidir. Qarabağın əhalisinin üçdə birinin öz daimi yaşayış yerlərindən didərgin salındığı və 30 ilə yaxındır evlərinə qayıtmaq imkanından və öz bölgələrinin gələcəyinə dair azad iradə nümayiş etdirilməsindən məhrum oldunqları bir vaxtda nə Qarabağ əhalisinin təhlükəsizliyi, nə də azad iradənin nümayiş etdirilməsindən danışmaq olmaz", - Abdullayeva bildirib.

Onun sözlərinə görə, yadda saxlamaq lazımdır ki, Azərbaycan ərazilərinin işğalı müvəqqəti xarakter daşıyır. "Nə qədər tez Ermənistan bunu dərk edərsə və öz-özünü, xalqını aldatmağa, həmçinin beynəlxalq ictimaiyyəti yanıltmaq səylərinə son verərsə, qan tökülməsinin və onsuz da heç də yaxşı olmayan vəziyyətinin daha da pisləşməsinin qarşısının alınması üçün bir o qədər çox şansı olar", - Abdullayeva vurğulayıb.

# Türkiyənin Adana şəhərindən autik xəstə uşaq anasının Prezident Əliyevə ürəkparçalayan məktubu... Sizin o sözünüzü xatırlayan kimi...

**Bu gün koronavirus pandemiyası ilə əlaqədar olaraq bir sıra dövlətlər öz vətəndaşlarının taleyini Allah ümidinə buraxdığı bir dövrdə Azərbayan dövləti həm ölkə daxilində, həm də xarici ölkələrdə yaşayan vətəndaşlarına göstərdiyi diqqət və qayğı ilə nümunələr yaradır.**

Türkiyə Respublikasının Adana şəhərindən Prezidentə məktub ünvanlayan Abdulova Vüsalə Novruz qızı bu ağır günlərdə dövlət qayğısı ilə təmin edildiyini yazır. "Mən Türkiyənin Adana şəhərində yaşayıram. Hemofiliya xəstəliyindən və autizm sindromundan əziyyət çəkən 14 yaşlı oğlum - Allahverdi Salmanov evdə pillələnlərdən yıxılmış və aldığı zərbədən beyninə qan sızmışdı.Yaşadığım Adana şəhər Uşaq Araşdırma Xəstəxanasının reanimasiya şöbəsində ölümlə çarpışan oğlumun yanında bir neçə gün yalnız qaldım. Sizin "Mən bütün dünyadakı azərbaycanlıların Prezidentiyəm" sözünüzü xatırlayan kimi bu yalnızlıq məni tərk etdi.

Son dövrlər Sizin tapşırıqlarınıza uyğun olaraq, Azərbaycan hökumətinin Türkiyədəki soydaşlarımıza göstərdiyi maddi və mənəvi yardımları yada saldım.

Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinə müraciət edərkən "Azərbaycan dövləti arxanızdadır" sözlərini eşitdim.

**Oğlum zəruri dərman preparatları ilə pulsuz təmin olundu. Bu həm də mənə böyük mənəvi dayaq oldu. Çətin günlərdə özümü yalnız hiss etmədim".**

V.Abdulova Azərbaycan dövlətinin qayğısı nəticəsində hazırda övladının müalicəsinin davam etdirildiyini yazır. "Dünya ölkələrinin iflic vəziyyətdə olduğu günlərdə bütün qüvvələri səfərbər edərək ölkəmizi qoruduğunuza, həm də xaricdə yaşayan azərbaycanlılara yardım etdiyinizə görə çox sağ olun" - deyə yazan V.Abdulovanın sözlərinə görə, bu ağır günlərdə xaricdə yaşayan azərbaycanlılar Azərbaycan dövlətini, Azərbaycan Prezidentini öz yanlarında görüblər.

*İradə SARIYEVA*



# Jurnalistlər qanvermə aksiyasında iştirak ediblər

**Aprelin 22-də Azərbaycan Mətbuat Şurasının təşəbbüsü ilə Şuranın İdarə Heyətinin üzvləri, ölkənin aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri və jurnalistlər Hemotologiya və Qanköçürmə Elmi-tədqiqat İnstitutunda qan veriblər.**

Beləliklə, media təmsilçiləri ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə ölkə miqyasında həyata keçirilən qanvermə aksiyasına dəstəklərini ifadə ediblər.

Jurnalistlər öncə Hemotologiya və Qanköçürmə Elmi-tədqiqat İnstitutunda vətəndaşların qan vermələri üçün yaradılmış şəraitlə tanış olublar. Onlara ehtiyat qan bazası haqqında məlumat verilib, mövcud istiqamətdəki statistik rəqəmlər açıqlanıb. Müvafiq müayinədən keçdikdən sonra media təmsilçilərinin donor olma imkanları öyrənilib.

Qeyd edək ki, ölkəmizdə müxtəlif qan xəstəliklərindən əziyyət çəkən çoxsaylı vətəndaşımız, əsasən də uşaqlar var. Koronavirus təhlükəsinin qaldığı hazırkı şəraitdə qan tədarükünün sabit saxlanmasına ciddi ehtiyac duyulur. Bu baxımdan, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın irəli sürdüyü qanvermə təşəbbüsü olduqca aktualdır, nəciblik və humanizm nümunəsidir.

# Vətəndaşlar dövlətin siyasətini izlədiklərini Prezidentə yazılan məktublardakı bu fikirlərlə bir daha nümayiş etdirirlər...

**Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin əsasında vətəndaş amili, onun maraqları, sosial rifahı, təhlükəsizliyi dayanır. Dövlət hər bir addımı vətəndaşın bu gününü və sabahını düşünərək atır. Koronavirus pandemiyası ilə bağlı dövlətin ardıcıl, sistemli şəkildə gerçəkləşdirdiyi mübarizə tədbirlərinin əsas hədəfi vətəndaşların bu virusa yoluxmasının qarşısını mümkün qədər almaq, onu lokallaşdırmaq, təsirini azaltmaq olub və dövlət çalışır ki, insanlarımızı bu infeksiyadan tamamilə xilas etsin. Bütün təhlükəsizlik tədbirlərinin də qayəsi, məqsədi budur.**

Azərbaycan dövlətinin pandemiya dövründə həyata keçirdiyi siyasəti, gördüyü tədbirləri yaxından diqqətlə izləyən ölkə vətəndaşları bununla bağlı fikirlərini Prezidentə yazdıqları məktublarda ifadə edirlər.

Müxtəlif yaş kateqoriyasına, sosial statusa malik olan vətəndaşlar Prezidentə yazdıqları məktublarla Prezidentin rəhbərliyilə həyata keçirilən siyasətə dəstək nümayiş etdirirlər.

Onu da qeyd edək ki, Prezidentə məktub yazanlar arasında xaricdə yaşayan Azərbaycan vətəndaşları da çoxdur. Onlar dövlətin xaricdə yaşayan vətəndaşlarımıza bəslədiyi qayğı siyasətindən razılıq edirlər.

Məktublarda qaçqın və məcburi köçkünlərin problemlərinin, qayğılarının həlli istiqamətində Prezidentin həyata keçirdiyi siyasət, şəhid ailələrinə qayğı, başlıcası isə pandemiya ilə mübarizədə reallaşdırılan məqsədyönlü tədbirlərin verdiyi effekt və s. önə çəkilir.

Dağlıq Qarabağ münaqişəsi nəticəsində 1992-ci ildə doğma yurdundan - Laçından köçkün düşərək ailəsi ilə birlikdə Ağcabədi rayonu ərazisində məskunlaşan Məmmədov Pəhlivan Firudin oğlu məktubunda yazır ki, mənfur düşmənlərimizin xəyanəti nəticəsində el-obası işğala məruz qalsa da, köçkünlükdən sonra Azərbaycan dövlətinin qayğısı sayəsində heç bir çətinliklə üzləşməyiblər. O, bu günlərdə dövlət tərəfindən evlə təmin edilməsini Prezidentin bu kateqoriyadan olan vətəndaşlara göstərdiyi qayğı siyasətinin örnəklərindən biri olduğunu yazır: "Hazırda Laçın Rayon Baytarlıq İdarəsində baytar həkim işləyirəm. Bu günlərdə ailəmiz dövlətimiz tərəfindən yeni evlə təmin olundu. Bu, Sizin, dövlətin xalqa daimi qayğınızın bariz nümunəsidir".

Kəlbəcər rayon ictimaiyyəti adından rayonun 87 yaşlı sakini, Azərbaycan RespublikasıAğsaqqallar Şurasının və Yazıçılar Birliyinin üzvü, "Aşıq Şəmşir Mədəniyyət Ocağı" İctimai Birliyinin sədri Qənbər Qurbanovun Prezidentə ünvanladığı dəstək məktubunda Prezident İlham Əliyevin rəhbərliyilə koronavirus (COVID-19) xəstəliyinin Azərbaycanda geniş yayılmasının qarşısının alınması üçün həyata keçirilən mübarizə tədbirlərinin vətəndaşlarda qürur hissi yaratdığını ifadə edib. "Dünyanın ən inkişaf etmiş ölkələrinin, müasir səhiyyə sistemlərinin belə qarşısında aciz qaldığı bu xəstəlik Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən hələ pandemiya elan olunmasından əvvəl Sizin uzaqgörənliklə başlatdığınız və birbaşa rəhbərliyinizlə həyata keçirilən tədbirlər nəticəsində, şükürlər olsun ki, ölkəmiz üçün faciəvi nəticələrə gətirib çıxarmadı. Bütün bunlara görə xalqımız Sizə minnətdarlığını ifadə edir, Azərbaycanın bu sahədəki mübarizəsinin dünya ölkələri üçün örnək olmasını qürur hissi ilə qarşılayır. Məhz görülən tədbirlərin nəticəsidir ki, son günlər ölkəmizdə bu xəstəliyin gedişatı ilə bağlı müsbət dinamika müşahidə olunur, sağalıb evlərinə dönən xəstələrin sayı hər gün artır" - deyə qeyd edən 87 yaşlı Q.Qurbanov, həmçinin, Prezident İlham Əliyevin göstərişi ilə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın, eyni zamanda, Koronavirusla Mübarizəyə Dəstək Fondunun yaradılmasını, "Yeni klinika" tibb müəssisəsinin və Sumqayıt Kimya Sənaye Parkında tibbi maska istehsalı müəssisəsinin açılmasını, sosial qayğıya ehtiyacı olan vətəndaşlara maddi yardımların göstərilməsini yüksək qiymətləndirdiyini qeyd edir. Bundan başqa, el ağsaqqalı bu problemin həlli ilə bağlı ölkə başçısının keçirdiyi müşavirələrin, dövlət strukturlarına verdiyi müvafiq tapşırıqların ictimaiyyət tərəfindən razılıqla qarşılandığını yazıb. "Görülən bütün bu tədbirlər, Sizin, eləcə də Birinci vitse-prezident Mehriban xanım Əliyevanın çətin anlarda hər zaman xalqla birliyi, bütün fəaliyyətinizin xalqımızın bu ağır sınaqdan üzüağ çıxmağına yönəlməsi insanlarda yüksək əhval-ruhiyyə yaradıb. Bu çətin günlərdə bütün xalqımız Sizin "Biz birlikdə güclüyük!" çağırışınızın müsbət əhval-ruhiyyəsi və mənəvi gücü ilə yaşayır" - deyə Q.Qurbanov məktubunda vurğulayıb.

Lənkəran rayonunun Türkəkəran kəndindən Hacı Cəfərov və Saleh Kazım oğlu isə Prezidentə yazdıqları məktubda COVID-19 pandemiyasına qarşı mübarizə dövründə Prezidentin bütün vətəndaşları öz ətrafında birləşdirməsini və bununla da milli həmrəyliyə nail olunmasını qeyd edirlər. Onar vurğulayırlar ki, Prezidentin qayğısı və dəstəyi insanları bu virusa qarşı mübarizədə səfərbər edib. "Mən, nəvə və nəticələrim daxil olmaqla, ailəmin 75 üzvü adından Sizə dərin minnətdarlığımı bildirirəm. Bu bəladan itkisiz və üzüağ çıxmaq üçün qurban kəsib, namaz qılmaqla Allaha dualar edirəm".

O, həmçinin, yazır ki, Prezident İlham Əliyev Prezident seçilərkən Qurana əl basıb, and içib, "Hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam" deyib və belə ağır günlərdə də o, hər bir Azərbaycan vətəndaşının Prezidenti olduğunu sübut edib.



Bakı şəhəri, Xətai rayonunda yaşayan Laçın rayonundan məcburi köçkün Xaspoladzadə Türkanə Qalib qızı isə məktubunda Prezidentin rəhbərliyi və dəstəyilə ölkəmizdə həyata keçirilən uğurlu gənclər siyasətinə, gənclərin ölkəmizin ictimai-siyasi həyatında rolunun artdığına diqqət çəkir.

Bundan başqa, o, Prezidentin aztəminatlı, sosial qayğıya ehtiyacı olan ailələrə böyük diqqət və qayğı göstərdiyini vurğulayıb: "Dünyanın bəşəri probleme çevrilən koronavirusun ağuşunda olduğu bu çətin dövrdə xalqımızın rifahı naminə imzaladığınız sərəncamlar bir daha göstərdi ki, Azərbaycan xalqının sağlamlığı, əminamanlığı, hər zaman olduğu kimi, yenə də Sizin üçün ən önəmli məsələdir".

Ağdam rayonundan Məhəmməd İsmayılov, Ənvər Məhərrəmov, Kəmalə Rüstəmova, Rafiq Əliyev və başqaları adından Prezidentə ünvanlanan məktubda ölkəmizdə milli həmrəyliyin bu günə qədər müşahidə edilməyən səviyyədə olmasını ölkə başçısının yürütdüyü uğurlu siyasətlə əlaqələndirirlər: "Bu Sizin xalqımıza olan diqqət və qayğınıza cavabdır. Tövsiyələriniz, çağırışlarınıza səs verən vətəndaşlar çətin günlərdə dövlətimizin ətrafında sıx birləşdilər. Hamı bir-birinə, xüsusilə aztəminatlı ailələrə köməklik göstərir".

Onlar, eyni zamanda, sahibkarlara göstərilən dövlət dəstəyindən razılıq edir və karantin şəraitində vətəndaşlara yardımlar edildiyini yazırlar.

Füzuli rayonu, Horadiz şəhər 2 nömrəli tam orta məktəbinin direktoru Əliyeva Ləman Rövşən qızı öz məktubunda koronavirus pandemiyasının Azərbaycanda yayılmasının qarşısının alınması istiqamətində Prezidentin rəhbərliyilə ilk gündən bütün mümkün qabaqlayıcı və təxirəsalınmaz tədbirlərin həyata keçirilməsinin ictimaiyyət tərəfindən rəğbət və məmnunluq hissi ilə qarşılandığnın qeyd edir: "…Füzulidə də vətəndaşlardan özünütəcrid tədbirlərinə uyğun davranmaq, yalnız ciddi ehtiyac yarandıqda evdən çıxmaq, digər şəxslərlə minimum kontaktda olmaq və digər qaydalara ciddi əməl etmək tələb olunur".

Xızı rayonunun Xələnc kəndindən mədəniyyət işçisi Şərifova Sevər Nəsrulla qızı da yazır ki, bu gün dünyanı aciz vəziyyətə salmış, səhiyyəsi, iqtisadiyyatı güclü inkişaf etmiş ölkələri belə çətinliklər qarşısında qoyan koronavirusla mübarizədə xalqımızın sağlamlığı, rifahı, təhlükəsizliyi baxımından Prezidentin atdığı addımlar müsbət qarşılanır. "Sizin bu çətin vəziyyətdə aztəminatlı insanlara dəstəyiniz, xalqa göstərdiyiniz maddi və mənəvi dəstək bir daha bizləri səmimi qəlbdən qürurlandırdı. Xalqın hər bir nümayəndəsinə göstərdiyiniz qayğı, əsasən də yaşlı insanların sağlamlığının qorunması üçün verdiyiniz qərarlar xalqımızın mənəvi dəyərlərinə verdiyiniz yüksək qiymətin daha bir nümunəsidir. Siz bir daha sübut etdiniz ki, hər bir vətəndaşın Prezidentisiniz. Biz birlikdə güclüyük!" - deyə o qeyd edib.

Məmmədova Hicran Qədir qızı Gəncə şəhərindən Prezidentə ünvanladığı məktubda "Sizin qətiyyətli iradəniz və təşəbbüskarlığınız sayəsində ilk gündən ölkəmizdə koronavirusun geniş yayılmasının qarşısını almaq məqsədilə vətəndaşlarımızın sağlamlığının qorunmasına xidmət edən bütün zəruri, qabaqlayıcı addımlar atıldı. Bu gün də sərhəd tanımayan qorxunc infeksiyanın ölkəmizdə yayılmasının qarşısının alınması ilə bağlı təxirəsalınmaz tədbirlər davam etdirilir. Sizin "Biz birlikdə güclüyük!" çağırışınız isə xalqımızın milli birliyinə stimul oldu, pandemiyaya qarşı mübarizədə hər birimizi həmrəyliyə səslədi" - deyə yazır.

Saatlı rayonunun Varxankənd kəndindən əməkdar müəllim Şimşəkov Lətif Şükri oğlu isə bu rayonda yaşayan Axıska türklərinin də Prezidentin həyata keçirdiyi tədbirləri yüksək dəyərləndirdiklərini yazır: "Siz dünyanı bürüyən və böyük tələfatlara səbəb olan koronavirus pandemiyasına qarşı çevik və vaxtında qabaqlayıcı tədbirlər həyata keçirməklə vətəndaşlarımızın yanında olduğunuzu bir daha sübut etdiniz.

Həmçinin, son günlər əhalinin aztəminatlı hissəsinin sosial rifahının yaxşılaşdırılması üçün imzaladığınız məlum sərəncamlara görə Saatlı rayonunda yaşayan Axısqa türkləri adından Sizə minnətdarlığımızı bildiririk".

Qobustan rayonundan Prezidentə məktub yazan Mahmudzadə Baba Məzahir oğlu məktubunda əsasən aztəminatlı ailələrin sosial rifah halının yüksəldilməsi üçün həyata keçirilən dövlət tədbirlərini qeyd edir: "Aztəminatlı ailələri və işsiz vətəndaşları nəzərə alaraq dövlət tərəfindən 190 manat birdəfəlik ödəmələr üçün vəsait ayrıldı. Bu vəsait 200 min insana şamil edilirdi, lakin Sizin tapşırığınıza əsasən, bu say 600 minə çatdırıldı. Siz bir daha vətəndaşların yanında olduğunuzu sübut etdiniz".

Ağdaş rayonundan Quluyev Cavid Cavanşir oğlu da Prezident İlham Əliyevin rəhbərliyilə COVID-19 epidemiyasının qarşısını almaq məqsədilə reallaşdırılan tədbirlərin əhəmiyyətini qeyd etməklə yaşaşı, Təhsil Nazirliyinin gerçəkləşdirdiyi teledərslərin də əhəmiyyətini vurğulayır. "Təhsil Nazirliyinin təşəbbüsü ilə hazırlanan teledərslərdə iştirak edir və dərslərimi daha həvəslə oxuyuram" - deyə yazan C.Quliyev gələcəkdə həkim olmaq arzusunda olduğunu da bildirir.

Bakı şəhəri, Binəqədi rayonundan Məmmədov Murad İlyas oğlunun Prezidentə ünvanladığı məktubda . "... Sadə insanlar Sizin üçün dua edirlər. Mən gözəl şəhərimizə, göz oxşayan parklara görə də Sizə dərin təşəkkürümü bildirirəm. Bakıda aparılan işlərə görə çox xoşbəxtəm. Bu, Sizi və Sizin siyasətinizi dəstəkləyən xalqı birləşdirir".

Siyəzən rayonundan Balabəy Balabəyov öz məktubunda qeyd edir ki, Prezident İlham Əliyevin göstərişi ilə həyata keçirilən qabaqlayıcı tədbirlər sayəsində virusun kütləvi şəkildə yayılmasının qarşısı alınıb və nəzarətdə saxlanır.

**"Əhalini virus təhlükəsindən qorumaq üçün ölkədə xüsusi karantin rejimi elan olundu, dezinfeksiya işləri aparıldı, səhiyyə sahəsində gücləndirilmiş iş rejiminə start verildi, həkimlərin maaşı artırıldı. Bundan əlavə, insanların evdə qalmaları ilə əlaqədar yarana biləcək problemlər də nəzərə alındı, onların sosial rifahı ilə bağlı qərarlar qəbul olundu. Aztəminatlı ailələrə 190 manat vəsaitin verilməsi ilə bağlı Sərəncam imzaladınız. Ölkənin iş adamları da çağırışınıza qoşularaq insanlara çətin durumda dəstək oldular" - deyə B.Balabəyov vurğulayıb.**

*İradə SARIYEVA*



# Azərbaycan dindarları karantin qaydalarına xüsusi münasibətlərini Prezidentə yazıb göndərirlər - Ucarın Çiyni kəndindən...

**Prezident İlham Əliyevin rəhbərliyi-lə ölkəmizdə həyata keçirilən antivirus tədbirləri, karantin rejiminin tətbiq edilməsi, vətəndaşların sağlamlığı, təhlükəsizliyi və sosial rifahının yüksəldilməsi istiqamətində atılan addımlara ölkə dindarları da dəstək verirlər.**

Ucar rayonu, Çiyni kəndindən din xadimi Zaur Eyvazov məktubunda hazırda bütün dünyada koronavirus pandemiyası ilə mübarizə aparıldığı bir zamanda ölkəmizdə Prezident tərəfindən vaxtında lazımi və qabaqlayıcı tədbirlərin görülməsinin, əhalinin sağlamlığının qorunması istiqamətində icra edilən operativ işlərin cəmiyyət tərəfindən dəstəkləndiyini qeyd edir.

"Bütün sahələrdə olduğu kimi, dindar insanlar da Sizin daimi diqqət və qayğınızı hiss edirlər. Azərbaycan dindarları da xüsusi karantin rejiminin qaydalarına riayət edirlər.

**Bu gün dünyadakı çətin vəziyyətə baxmayaraq, Sizin sayənizdə ölkəmizdə ailəsinin əhatəsində evdə qalan hər bir şəxs ruhdan düşmür, gələcəyə inamla baxır. Bunlar Sizə olan etibardan qaynaqlanır. Əminik ki, bu tədbirlər tezliklə müsbət nəticə verəcək" - deyə din xadimi yazır.**



# Qaradağdan baş həkim səhiyyəmizdəki çoxillik işlərin nəticəsini Prezidentə belə təsvir etdi...

**Azərbaycan dövlərinin koronavirus pandemiyası ilə mübarizədə əldə etdiyi müsbət nəticələrdə dövlət qayğısı ilə hərtərəfli təmin edilən ölkə səhiyyəsinin, həkim və tibb işçilərinin rolu da danılmazdır.**

Bakı şəhəri, Qaradağ rayonu 17 saylı Birləşmiş Şəhər Xəstəxanasının baş həkimi Elmira Rəfailova öz məktubunda Prezident İlham Əliyevin rəhbərliyi-lə respublikamızın gündən-günə inkişaf etdiyini, dünya dövlətləri sırasında nüfuzunun artması istiqamətində çox böyük işlərin görüldüyünü və görülən işlərin ictimaiyyət tərəfindən təqdir edildiyini yazır.

"Sizin daim diqqət mərkəzində saxladığınız sahələrdən biri də səhiyyədir ki, bu günlərdə illər əvvəl gördüyünüz işlər öz bəhrəsini verdi. Müasir tələblər səviyyəsində yenidən inşa edilmiş, müasir tibbi avadanlıqlarla təchiz edilərək xalqın istifadəsinə verilmiş xəstəxanalar bu gün koronavirus infeksiyasına tutulan xəstələrin nicat yeri oldu" - deyə yazan baş həkim, həmçinin, dünyanın belə çətin, qarışıq günlərində xalqın sağlamlığı, təhlükəsizliyi, sosial müdafiəsi sahəsində Azərbaycan Prezidentinin atdığı addımları digər ölkələrin rəhbərlərinin atmadığını qeyd edir.

*İradə SARIYEVA*



# Aşıqlar Birliyinin katibi virusa yoluxmada geridönüşün başlanması barədə Prezidentə belə yazıb...

**Son aylar dünyanı bürüyən pandemiyadan Azərbaycan xalqının mümkün qədər az itki ilə çıxması ilə bağlı Prezident İlham Əliyevin göstərişinə əsasən, həyata keçirilən kompleks tədbirlər, bu yöndə atılan qətiyyətli addımlar cəmiyyətin müxtəlif sferaları, təbəqələri tərəfindən təqdir edilir, dəstəklənir.**

Azərbaycan Aşıqlar Birliyinin katibi, Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlu Prezidentə ünvanladığı məktubda Azərbaycan dövlətinin koronavirus pandemiyasına qarşı sərgilədiyi fərqli və effektiv mübarizə üsullarının, habelə həyata keçirdiyi sosial müdafiə və digər tədbirlərin bütün dünya üçün örnək olduğunu yazır. "Ölkə rəhbəri kimi Sizin vaxtında həyata keçirdiyiniz tədbirlərin nəticəsidir ki, Azərbaycan bu gün bütün dünyanı bürümüş koronavirusdan ən az əziyyət çəkən, bəşəriyyətin bəlasına çevrilmiş pandemiyaya qarşı ən səmərəli mübarizə aparan ölkələr arasında ön sıralarda dayanır. Hətta Azərbaycan bu sahədə Avropanın və dünyanın ən qabaqcıl ölkələrini də arxada qoyur. Qısa müddət ərzində bu virusa yoluxma dinamikasında geridönüşün yaranması, son günlərdə isə sağalanların sayının yeni yoluxanların sayından dəfələrlə artıq olması, ölüm faizinin bəlkə də dünyada ən aşağı səviyyədə olması bir daha onu sübut edir ki, Sizin rəhbərliyiniz və bilavasitə göstərişləriniz əsasında bu istiqamətdə çox ciddi tədbirlər həyata keçirilir. Xalqımız və eləcə də dünya ictimaiyyəti bir daha şahidi oldu ki, Azərbaycanda əhalinin sağlamlığı və sosial rifah halı dövlətin çox böyük önəm verdiyi prioritet sahədir və ölkəmiz yarana biləcək hər cür fors-major hallara hazırdır".

M.Nəbioğlu, həmçinin, yaranmış vəziyyətlə əlaqədar elan olunmuş karantin dövründə dünyanın bir çox ölkəsindən fərqli olaraq, Azərbaycanın iqtisadi böhran yaşamaması, əhalinin ərzaq və digər zəruri mallara ehtiyacının ödənilməsində heç bir problemin olmaması, nəzərdə tutulmuş sosial layihələrin dayandırılmaması ilə yanaşı, işsizlərə yardım edilməsi, sahibkarlara dəyən ziyanın minimuma endirilməsi üçün müxtəlif tədbirlərin həyata keçirilməsi, onlara maliyyə dəstəyinin göstərilməsi faktını önə çəkir.

O, eyni zamanda, vurğulayır ki, Prezident İlham Əliyevin həyata keçirdiyi uzaqgörən xarici və daxili siyasət sayəsində ölkəmizin beynəlxalq aləmdə nüfuzu gündən-günə artır, iqtisadiyyatımız inkişaf edir, respublikamızda maliyyə dayanıqlılığı getdikcə möhkəmlənir, xalqla dövlətin sarsılmaz birliyi mövcuddur.

*İradə SARIYEVA*

**Rusiyanın Xarici işlər naziri Sergey Lavrov keçirdiyi brifinq zamanı bildirib ki, Madrid prinsipləri, Rusiyanın 2010-2011-ci illərdə hazırladığı sənədlər, Kazan sənədi və ötən ilin aprel ayında Moskvada Rusiya, Azərbaycan və Ermənistan XİN rəhbərlərinin həmsədrlərin iştirakı ilə müzakirə etdiyi layihələr mövcuddur və onlar hazırda fəal müzakirə olunur:**

# Lavrovun bəyanatından çıxan birmənalı nəticə - mühüm Qarabağ sənədini imzalamayan məhz Ermənistandır...

## *Yeganə Hacıyeva: "Bu qədər "ərköyün" tərəfin danışıqlarda anlaqlı hala gəlməsi üçün preventiv güc tətbiqi qaçılmaz olacaq"*




"Bu sənədlər nizamlamanı mərhələli yanaşma əsasında davam etdirməyi və ilk növbədə daha aktual problemləri, Dağlıq Qarabağ ətrafında bir sıra rayonların azad olunmasını, nəqliyyat, iqtisadi və digər kommunikasiyaların açılmasını nəzərdə tutur. Mən əminəm ki, bu sənədlərin imzalanması barədə qərar qəbul edilsə, bu, BMT Təhlükəsizlik Şurasının müharibəni dayandırıb danışıqlara keçməyi tələb edən qətnamələrin icrasında vacib addım olacaq. Danışıqlar başlayıb, indi isə razılaşmaq lazımdır. Biz ATƏT-in Minsk Qrupunun həmsədrləri olaraq məhz buna çalışırıq".

Lavrovun fikirlərindən belə qənaətə gəlmək olarmi ki, vacib sənədlərin imzalanmasına maneçiliyi məhz Ermənistan törədir?

Politoloq Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bu suala cavab verməzdən öncə onu qeyd etdi ki, hazırda Rusiya XİN Dağlıq Qarabağ və ya MDB-də mövcud digər konfliktlərin həllində yeni yanaşma sərgiləmək, konfliktlərə yeni baxış bucağı və s. tətbiq etmək imkanına malik deyil:"Bunu şərtləndirən çoxlu məqamlar var, ümumi olaraq onu qeyd edim ki, Rusiya XİN rəhbəri və onun başçılıq etdiyi siyasi qrup Rusiyadaxili proseslərdə həddsiz ambisiyası və dövlət büdcəsindən ayırmalarda çirkli aktivliyi üzərindən həssas zamanlarını yaşayır. Ümumiyyətlə isə, Rusiya XİN-də və bu ölkədə ənənəvi erməniпərəst qruplar Rusiyada, televiziyalar da daxil KİV-ə nəzarət etmək, bu ölkənin informasiya gündəminin formalaşdırılması və bunun üzərindən siyasi qərarlara təsir alətlərinə malikdir. Hətta bu məqamlar bəzən Rusiya milli maraqlarına hədə halına gəlməklə təhlükəsizlik dairələrinin qıcığına səbəb olur. Biz zamanzaman bu dairələrin "əlqolunun" yığışdırılması istiqamətində addımları izləyirik. Daha öncələr biz belə münasibətin Rusiyanın xarici işlər naziri Sergey Lavrovun Azərbaycana sərt münasibəti ilə seçilən birisini səfir kimi göndərmək kimi uğursuz təşəbbüsündə də şahidi olduq. Onun bu cəhdi uğursuzluqla nəticələndi. Xatırlayırsınızsa, Rusiya Dövlət Dumasının MDB məsələləri üzrə Komitəsi Rusiya Xarici İşlər Nazirliyi Kadrlar Departamenti direktorunun müavini Georgi Zuyevin Azərbaycana yeni səfir təyinatını hətta bəyənmişdi. Lakin Azərbaycana erməniпərəst mövqedə olduğu deyilən Zuyevin namizədliyi məhz Rusiya Təhlükəsizlik Şurasının "tövsiyə"sindən sonra qəbul olunmadı. Rusiyanın Xarici işlər naziri Sergey Lavrov azərbaycanlı jurnalistin sualına cavabında Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə danışıqların indiki formatının yaxşı və faydalı olduğunu bildirdi. Burda bir haşiyə çıxım ki, 2016-ci aprel müharibəsindən sonra rəsmi İrəvanın danışıqların bu formatında əlində bayraq etdiyi əsas məqam müharibənin və güc tətbiqinin dayandırılması haqqında şərtlərin olmasıdır. Çünki BMT Təhlükəsizlik Şurasının müharibəni dayandırıb danışıqlara keçmək tələbi məhz bu formatda əksini tapıb. Rusiyanın Xarici işlər naziri Sergey Lavrovun indiki formatı yaxşı və faydalı adlandırması haqqında onu deyim ki, istənilən nizamlama formatının faydalı və ya yaxşı olmasını danışıqlarda əldə edilən nəticələr göstərir. Biz danışıqlarda hər hansı bir nəticəni müşahidə etməmişik. Şəxsən mən o fikirdəyəm ki, Azərbaycan XİN-in rəsmi fikirlərində də əksini tapmış danışıqlarda Ermənistan tərəfinin bəlli olmayan mövqeyindən aydın mövqeyə çəkilməsi üçün preventiv güc tətbiqi qaçılmazdır. Biz illərdir Ermənistan tərəfinin danışıqları sobataj etməsi, danışıqların mühüm mərhələsində Ermənistanın bu prosesdəki məsul şəxslərinin kənarlaşdırılması, hökümət dəyişməsi və s. kimi hər cür bəhanələrin şahidi oluruq. Son iki il isə Ermənistan baş naziri Nikol Paşinyan danışıqları pozmaq üçün açıq provokasiya ilə məşğul olur. Bütün bunlar əbədi davam edə bilməz və bu qədər "ərkoyün" tərəfin danışıqlarda anlaqlı hala gəlməsi üçün preventiv güc tətbiqi qaçılmaz olacaq".

***Məhəmmədəli QƏRİBLİ***

**Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması çərçivəsində substantiv danışıqların intensivləşdirilməsini tələb edir. Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib:**

# Azərbaycan ermənilər üçün ən ağır tələbi yenidən aktuallaşdırdı - substantiv danışıqlar bərpa olunmalıdır...

"Azərbaycan substantiv danışıqların intensivləşdirilməsini tələb edir, çünki bölgənin hazırda üzləşdiyi vəziyyətdən çıxmağın başqa bir yolu mövcud deyil. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə Azərbaycanın mövqeyi dəyişməz olaraq qalır və o, münaqişənin BMT Nizamnaməsi və ATƏT-in Helsinki Yekun Aktında əks olunduğu kimi beynəlxalq hüququn norma və prinsipləri əsasında həllinə və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin həyata keçirilməsinə əsaslanır".

Görünən budur ki, Dağlıq Qarabağ probleminin həlli istiqamətində maraqlı proseslər cərəyan etməkdədir. Bir tərəfdən münaqişənin həlli istiqamətində hərəkətlilik artdığı bir zamanda, digər tərəfdən işğalçı Ermənistanın danışıqlar prosesinə maneçilik törətmək kimi cəhdləri özünü göstərir. Bu kimi hallar isə tərəflər arasında yüksək səviyyəli görüşü təxirə salır. ATƏT-in Minsk Qrupunun həmsədrləri sülh prosesinin hərbi nəticələr olmadan irəli aparılması imkanlarını nəzərdən keçirirlər. "Substantiv mahiyyət", "substantiv danışıqlar" Azərbaycana məxsus anlayışlardır. Ermənilər bu anlayışdan qaçır. Mnasakanyan açıqlamasında Ermənistanın danışıqları sürətləndirməyəcəyini açıq şəkildə bəyan edir. Göründüyü kimi, vasitəçilər daha çox münaqişə tərəfləri arasında etimad atmosferinin kritik həddə gəlməsi və bunun nəticəsi olaraq atəşkəsə artan təhlükədən, təmas xəttində gərginliyin artmasından narahatdırlar.




Odur ki, hər hansı şəkildə sülh prosesinə yeni bir təkan verməyə çalışırlar. Ancaq keçirilən görüşlərin faydası olmur. Artıq Azərbaycan XİN mənasız görüşlərin faydasına inanmır. Məsələ də ondadır ki, substansiv danışıqlar üçün danışıqlar da, hələ ki, nəticə vermir. Belə qənaət hasil olur ki, substansiv danışıqların bərpa olunmasına bəslənilən ümidlər 2020-ci ildə də nəticəsiz başa çatacaq. Danışıqların irəli aparılması, substansiv danışıqların başlaması üçünsə ilk növbədə işğalçı Ermənistan üzərində yeganə söz sahibi olan Rusiyanın siyasi iradəsi lazımdır. Artıq bu iradənin ilkin cücərtiləri özünü göstərməyə başlayıb.

***Məhəmmədəli QƏRİBLİ***

**Cənubi Qafqazın iki ölkəsində koronavirusla bağlı eln olunan fövqəladə vəziyyətin müddəti uzadılıb. Əvvəlcə Ermənistanda koronavirus epidemiyası ilə əlaqədar elan olunan fövqəladə vəziyyətin müddəti uzadılıb. Erməni KİV-nin verdiyi məlumata görə, bu qərar hökumətin iclasında qəbul edilib.**

# Ermənistan və Gürcüstan hakimiyyətləri fövqəladə vəziyyətə də əl atdılar - Azərbaycanın daha bir üstünlüyü...




*"Məhz bu amillərə görə Azərbaycan fövqəladə vəziyyət elan etmədən belə, digər Cənubi Qafqaz ölkələrindən qənaətbəxş nəticə əldə edə bilir"*

Qərara əsasən, martın 16-da elan edilmiş fövqəladə vəziyyət mayın 14-dək uzadılıb. Əvvəlki qərara əsasən, ölkədə fövqəladə vəziyyət aprelin 14-də bitməli idi. Bunun ardınca Gürcüstan Prezidenti Salome Zurabisvili də bu kontekstdə sərəncam imzalayıb. Sərəncama əsasən, fövqəladə vəziyyət rejimi mayın 22-dək uzadılıb. Xatırladaq ki, Gürcüstanda martın 21-də fövqəladə vəziyyət elan edilib. 10 gün sonra isə ölkədə komendant saatı tətbiq edilib.

Göründüyü kimi , həm Gürcüstanda, həm də Ermənistanda fövqəladə vəziyyət elan olundu və bunun müddəti uzadıldı. Ancaq Azərbaycan bunsuz ötüşdü və nəticələr hər iki ölkədə qənaətbəxş oldu. Ölkəmiz bu uğura nəyin hesabına nail olub?

İctimai Siyasi Proseslər Beynəlxalq Əlaqələr Mərkəzinin (İSBAM) rəhbəri Samir Adıgözəlli bildirdi ki, Azərbaycan hökumətinin yeni növ koronavirus pandemiyasının yayılması ilə mübarizə tədbirləri uğur modeli kimi digər ölkələrə nümunə göstərilib:"Bu gün dünyanın gündəmi koronavirusa qarşı mübarizədir. Hər gün bu virusa yoluxanların, onun qurbanlarının sayı barədə dəhşətli rəqəmlər açıqlanır. Bu pandemiyanın zərərlərini minimuma endirmək üçün Azərbaycan hakimiyyəti tərəfindən əhəmiyyətli və sistemli tədbirlər görülməkdədir. Pandemiyanın vura biləcəyi zərbələrdən az itki ilə çıxmaq üçün əsas şərt kimi aprelin 20-nə qədər ölkədə xüsusi karantin rejimi tətbiq edilib. Sonra bu müddət bir qədər də uzadıldı. Məqsəd əhalinin evdə qalmasını təmin etmək, sosial izolyasiya tədbirlərini genişləndirmək, bununla da virusun yayılmasının qarşısını almaqdır. Əgər koronavirusla bağlı dünya üzrə rəsmi statistikanı təhlil etsək, Azərbaycanın bu sahədə vəziyyətinin digər ölkələrlə müqayisədə xeyli dərəcədə qənaətbəxş olduğunu söyləyə bilərik. Təbii ki, bunda hökumətin gördüyü profilaktik tədbirlərin əhəmiyyətli rolu var. Prezident İlham Əliyev öz çıxışında belə həssas bir məqamda dövlətin öz vətəndaşının arxasında olduğunu nümayiş etdirdi. Diqqətdən qaçmamalıdır ki, Azərbaycan dünyanı vahiməyə salmış pandemiyaya qarşı savaşı, demək olar ki, öz vəsaiti hesabına aparır. Azərbaycan yeni bir nümunə yaradır və artıq bütün dünya ölkəmizin nümunəsini öyrənməyə çalışır. Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən tədbirlər, aparılan mübarizə Azərbaycanın bu sınaqdan da daha az itki ilə çıxacağına əminlik yaradır. Məhz bu amillərə görə Azərbaycan, fövqəladə vəziyyət elan etmədən belə, digər Cənubi Qafqaz ölkələrindən qənaətbəxş nəticə əldə edə bilir. Ermənistana gəldikdə isə, Paşinyan bu qərarı həm də siyasi hakimiyyətinin qorunması üçün verib. Məqsəd əhalinin tibbi təhlükəsizliyini təmin etmək olmayıb".

***Məhəmmədəli QƏRİBLİ***

---

**Beynəlxalq "Sərhədsiz Reportyorlar" təşkilatı dünyada söz və KİV azadlığının vəziyyətini qiymətləndirən "Dünyada mətbuat azadlığı indeksi"ni dərc edib. Hesabatda 180 ölkədəki vəziyyət təhlil edilib. Hesabatda Azərbaycanla bağlı görünməmiş qərəzli yanaşma sərgilənib.**

# "Sərhədsiz Reportyorlar"ın yeni qərəzi - Azərbaycan 168-ci yerə düşürüldü...

*"Sözügedən təşkilatın hesabatında ölkəmizlə bağlı məqamlar tamamilə əsassızdır"*

***Yadigar Məmmədli:*** *"Media və insan haqlarından danışan bəzi təşkilatların Azərbaycana olan qərəzli münasibəti dəyişməyib"*




Qeyd edilib ki, guya ötən illə müqayisədə vəziyyət daha da pisləşib və Azərbaycan 166-cı yerdən 168-ci yerə geriləyib.

Guya bu ilin əvvəlindən seçkilərdə saxtakarlıqları və müxalifətin mitinqlərini işıqlandıran jurnalistlərin təqibi dalğası başlayıb. Əsas müstəqil xəbər saytları bloklanıb. İddia olunur ki, mühacirətdəki jurnalistləri susdurmaq üçün hakimiyyət onların Azərbaycanda qalan ailə üzvlərini təqib edir. Bundan başqa, hakimiyyət guya Gürcüstanda və Ukraynada azərbaycanlı jurnalistləri həbs edir və Fransada jurnalistlərə qarşı iddia qaldırır.

Təşkilat hesab edir ki, ümumilikdə, bütün keçmiş SSRİ məkanında vəziyyət pisləşib. Demək olar ki, bütün keçmiş SSRİ respublikaları mətbuatı boğanlar arasında yer alıb. Norveç, Finlandiya və Danimarka ən azad mətbuatı olan ölkələr olaraq qalır. Ən pis vəziyyət Eritreya, Türkmənistan və Şimali Koreyada qeydə alınıb. Müstəqil mətbuata fiziki zorakılıq və təzyiq halları çoxalıb. Eyni zamanda, mötəbər olmayan məlumatın nəşrində şübhəli bilinən KİVə etimadsızlıq artıb.

"Sərhədsiz Reportyorlar" təşkilatının 180 ölkə arasında Azərbaycanı 168-ci yerdə göstərməsi açıq-aşkar qərəzli yanaşmanın göstəricisidir. Belə çıxır ki, mətbuat azadlığına görə Azərbaycan ən ucqar və təcrid olunmuş Afrika ölkəsindən belə geri qalır. Buna isə indiki dövrdə heç kəs inanmaz. Bununla yanaşı, mətbuat azadlığı ilə bağlı Azərbaycanda mənfiyə doğru nə dəyişdi ki, 2 pillə də gerilədik? O baxımdan qərəzli münasibət açıq-aşkar ortadadır.

Məsələyə münasibət bildirən Demokratik Jurnalistlər Liqasının sədri, media eksperti Yadigar Məmmədlinin sözlərinə görə, bu onu göstərir ki, dünya dəyişsə də, bəzi təşkilatların Azərbaycana olan qərəzli münasibəti dəyişmir: "Belə olmasaydı, o zaman "Sərhədsiz Reportyorlar" təşkilatı bu dərəcədə qərəzli hesabatla çıxış etməzdi. Bütün dünya koronavirusla əlaqədar qlobal bir problemlə məşğuldur. Virus yayılana qədər dünyanın inkişafı ilə bağlı proqnozlar fərqli idi. İndi isə yanaşma dəyişib. Əksər fikirlər ondan ibarətdir ki, koronavirusdan sonra dünya əvvəlki kimi olmayacaq. Ümumilikdə, çox şey dəyişəcək. Ancaq biz görürük ki, media və insan haqlarından danışan bəzi təşkilatların Azərbaycana olan qərəzli münasibəti dəyişməyib. O cümlədən, "Sərhədsiz Reportyorlar" təşkilatı da belə qurumlardandır. İndiki dövrdə monitorinqlər əsasında ciddi araşdırma aparılmalıdır.

Ətraflı statistika aparılmalıdır ki, vəziyyət nə yerdədir. Ondan sonra hesabatla çıxış etmək lazımdır. Ancaq sözügedən təşkilatlar köhnə bəyanatları götürərək belə qərəzli yanaşma sərgiləyirlər. Ölkəmizin yerini daha da aşağı pillələrə salırlar. Guya Azərbaycanda medianın vəziyyəti daha da pisləşib. Bu bir daha onu göstərir ki, Azərbaycanda hansı müsbət yeniliklərin olmasından asılı olmayaraq, onların məkrli niyyətləri bəllidir. Bu baxımdan hesab edirəm ki, "Sərhədsiz Reportyorlar" təşkilatının hesabatında Azərbaycanla bağlı məqamlar tamamilə əsassızdır".

***Vidadi ORDAHALLI***

**Ötən ayın əvvəlinə qədər dünya miqyasında neftin qiymətinin məqbul həddə qalmasını şərtləndirən başlıca faktor Azərbaycanın təşəbbüsü ilə OPEC və qeyri-OPEC ölkələri tərəfindən OPEC+ formatının yaradılması oldu. Məhz bu formatın effektiv fəaliyyəti uzun müddət ərzində neftin qiymətini 50-70 dollar arasında saxlaya bildi.**

# Azərbaycan neft bazarının xilası üçün daha bir mühüm təşəbbüs irəli sürdü - gələn aydan neft bazarında qiymət xaosuna son qoyula bilər...




Amma ötən ayın əvvəlində Rusiya və Səudiyyə Ərəbistanı arasında fikir ayrılığı səbəbindən OPEC+ formatının dağılmaq ərəfəsinə gəlməsi, ardınca koronavirus səbəbindən sərtləşən karantin rejimi neft qiymətlərinə sərt zərbə vurdu. Elə bundan sonra OPEC+ formatının nə qədər həyati əhəmiyyətə malik təşkilat olduğu bir daha təsdiqini tapdı. Hətta ilk dəfə olaraq aprelin 9-da OPEC+ formatına ABŞ, Kanada, İndoneziya, Norveç və Braziliya kimi iri neft istehsalçılarının qatılması kimi mühüm bir məsələ də reallaşdı.

Bunlar fonunda Azərbaycan yenidən vacib təşəbbüslə çıxış edərək, OPEC+ formatının genişlənməsini təklif edir. Qeyd edək ki, aprelin 12-də OPEC+ ölkələrinin bir sıra nazirləri neft bazarında cari proseslərin müzakirə olunduğu qeyri-rəsmi telekonfrans keçirib. Görüşdə Əlcəzair, Venesuela, Nigeriya, Qazaxıstan, Azərbaycanın energetika nazirləri iştirak edib. Qeyd edilir ki, onlar OPEC prezidenti, Əlcəzairin energetika naziri Məhəmməd Arkabanı belə iclasları müntəzəm keçirməyə çağırıblar. Azərbaycanın energetika naziri Pərviz Şahbazov məhz burada OPEC+ formatı ilı bağlı yeni mühüm təklif irəli sürüb. Belə ki, Pərviz Şahbazov müzakirələr zamanı OPEC+ formatında təmsil olunmayan digər neft istehsalçılarını öhdəliklər götürməyə dəvət edib:"OPEC+ tarixi missiya yerinə yetirir və müvafiq öhdəliklər götürüb. İndi isə OPEC+dan kənar neft istehsalçıları bu prosesə fəal şəkildə qoşulmalı və öz öhdəliklərini elan etməlidirlər". Ekspertlər hesab edir ki, bu reallaşsa, elə gələn aydan neft bazarında qiymət xaosuna son qoyula bilər. Əslində, bir çox neft hasilatçıları da eyni mövqedən çıxış edərək istehsalın bu formada azaldılmasını vacib sayır. Məsələn, Səudiyyə Ərəbistanı bildirib ki, OPEC+ formatının digər iştirakçıları ilə birgə neftin qiymətlərini tənzimləmək üçün əlavə addımlar atmağa hazırdır.

Qeyd edək ki, bundan əvvəl aprelin 12-də OPEC+ formatının iştirakçı ölkələrinin iqtisadiyyat nazirləri cari ilin may-iyun aylarında hasilatı 9,7 milyon barrel azaltmaq barədə razılığa gəliblər. İndi OPEC+ formatından kənar ölkələr də bu prosesə qoşulsa, neft qiymətində mühüm irəliləyiş gözləmək olar. "Rystad Energy" neft araşdırmaları mərkəzinin başçısı Bjornar Tonhaugen də bunu vacib sayır. O qeyd edir ki, indi neftə tələblə təklif arasındakı balanssızlıq özünü sözün əsl mənasında qiymətdə göstərməyə başlayıb:"Neft hasilatının həcmi bir o qədər də dəyişməyib, lakin anbarlar günbəgün dolur. Dünya getdikcə daha az neft işlədir və neft hasilatçıları bunun nə demək olduğunu indi tam başa düşürlər. Bu şəkildə hasilatın kəskin azalması vəziyyəti dəyişə bilər".

Hər halda görünən budur ki, neftin mövcud qiymətləri indi heç kimi qane etmir. Məhz bu səbəbdən qiymətlərin yüksəlməsi üçün dünya dövlətlərinin birgə fəaliyyəti vacib sayılır. Elə rusiyalı ekspert Oleq Kuznetsov da məsələyə eyni prizmadan yanaşır. Onun sözlərinə görə, əslində bu bir faktdır ki, neft heç vaxt sabitliyin və firavanlığın qarantı ola bilməyib. Ekspert bildirib ki, bu həqiqəti Rusiyada, Azərbaycanda, Səudiyyə Ərəbistanında yaxşı, İranda, İraqda, Venesuelada və Suriyada ikiqat yaxşı başa düşürlər:"Beləliklə, bu gün qarşılaşdığımız problem bir çox ölkə üçün xüsusi aktuallıq kəsb edir. Onu da deyim ki, Rusiya və Azərbaycana bu məsələ digər neft istehsal edən ölkələrə nisbətən daha az təsir edəcək. Fakt budur ki, neftin qiymətlərindən zərər çəkən büdcələrimiz dünya bazarında təbii qaza olan tələbatın artması və qazın qiymətlərinin sabit səviyyəsi ilə bərpa olunur. Sadə dillə desək, bizim qazımız da var. Bunu böyük "neft oyununda" kozır da adlandırmaq olar".

Kuznetsovun sözlərinə görə, Rusiya və Azərbaycan karbohidrogen ixracını şaxələndirib və bu onların iqtisadiyyatına yalnız neft ixracı üzrə ixtisaslaşan ölkələrə nisbətdə daha çox sabitlik gətirir:"Buna görə Moskva və Bakı üçün neftin qiymətinin kəskin düşməsinin nəticələri Ər-Riyad, Tehran, Bağdad və ya Dəməşqdən qat-qat az ağrılı olacaq. Bu baxımdan, digər OPEC ölkələri ilə müqayisədə ölkələrimiz kartel anlaşmasının pis nəticələrindən daha çox mühafizə olunub və şübhəsiz ki, bunu hamı yaxşı anlayır". Rusiyalı ekspert "axar" portalına açıqlamasında Azərbaycan və Rusiya büdcələrinin itkilərlə üzləşəcəyini də vurğulayıb: "Şübhəsiz ki, itkilərimiz olacaq. Amma bu heç də bizim ölkələrimiz üçün qlobal problemə çevrilməyəcək. Düşünmürəm ki, neftin qiymətində izlədiyimiz böhran əhalinin rifahına və kiçik və orta sahibkarlığın pandemiyadan sonra tez bərpa olunma qabiliyyətinə əhəmiyyətli dərəcədə təsir edəcək. Böhrandan dərhal sonra şiddətli rəqabətdən müvəqqəti azad olan durumu daha "təmiz" bazar əvəz edəcək. Əvvəlki iş səviyyəsi ölkələrimizdə karantindən ən azı bir neçə ay sonra tam olaraq bərpa olunacaq. Bu proses, digər ölkələrdən fərqli olaraq, Azərbaycanda daha asan baş tutacaq. Bu onunla izah olunur ki, Azərbaycan hakimiyyəti nəyi necə etməli olduğunu yaxşı başa düşür.

**Bakı karantindən sonrakı dövrə indidən hazırlaşır". Ekspert onu da vurğulayıb ki, Azərbaycanda kiçik və orta sahibkarlığa artıq kompensasiya ödənilir və yaxın gələcəkdə, karantin bitdikdən sonra güclü startı təmin etmək üçün dövlət subsidiyaları da elan ediləcək:"Bu şəraitdə dövlət dəstəyinin rolu çox vacibdir. Azərbaycan rəhbərliyi bunu başa düşür. Əhaliyə ünvanlı dəstək olmadan böhranın nəticələrini tez aradan qaldırmaq mümkün olmayacaq. Buna görə də, pandemiya kontekstində olduğu kimi, Bakı bu dəfə də sosialyönümlü siyasət yürütdüyünü bir daha sübut edəcək". Digər tərəfdən diqqət həm də ona yönəldilir ki, hasilat öhdəliyi ilə bağlı Azərbaycanın yeni təklifinin reallaşması neft qiymətlərində mühüm sıçrayışa səbəb olar. Bu da, digər hasilatçılar kimi, Azərbaycanın daha çox vəsait əldə etməsinə gətirib çıxara bilər.**

***Ramil QULİYEV***

# Lavrovdan mövcud Qarabağ danışıqları formatına birmənalı dəstək - qondarma "DQR"i danışıqlara gətirmək səylərinə növbəti zərbə...

**BMT Təhlükəsizlik Şurasının Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı qətnamələrinin həyata keçirilməsində ən vacib addım 2019-cu ilin aprel ayında Moskvada qəbul edilmiş sənədin imzalanmasıdır. Bunu Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov deyib.**

*"Lavrov birbaşa BMT qətnamələrinə əsaslanan həll variantlarının üzərində dayandı"*

Onun sözlərinə görə, bu, 2019-cu ilin aprelində Moskvada Rusiya, Ermənistan və Azərbaycan Xarici İşlər nazirlərinin ATƏT-in Minsk Qrupu həmsədrlərinin iştirakı ilə keçirilən iclasında qəbul edilmiş sənəddir: "Bu sənədlər nizamlanmanın mərhələli yanaşma əsasında irəliləməsini nəzərdə tutur. Birinci mərhələ ən aktual problemlərin həlli, Dağlıq Qarabağ ətrafındakı bir sıra rayonların azad edilməsi, nəqliyyat, iqtisadi və digər kommunikasiyalarla bağlıdır".

Ən vacib məqamlardan biri ondan ibarətdir ki, Lavrov mövcud danışıqlar formatını birmənalı dəstəklədi: "O vaxtdan bəri biz dəfələrlə danışıqlara başlamışıq, özü də müxtəlif formatlarda. Amma indi danışıqların Bakı-Yerevan, ATƏT-in Minsk qrupunun üç həmsədri və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi formatı müəyyən edilib. Bu, BMT Təhlükəsizlik Şurasının müharibəni dayandırmaq və razılığa gəlmək tələbini təcəssüm etdirən faydalı və yaxşı formatdır".

Bu o deməkdir ki, Lavrov ermənilərin separatçı qurumu danışıqlara qatmaq cəhdlərini açıq rədd etdi. Hansı ki, Paşinyan baş nazir olandan sonra dəfələrlə separatçı qurumun danışıqlarda tərəf olmasına cəhd edib, amma buna nail ola bilməyib.

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadə buna bir neçə aspektdən yanaşdı: "Rusiyanın Xarici İşlər naziri Sergey Lavrovun Qarabağ münaqişəsinin həlli ilə bağlı məlum həll paketlərini gündəmə gətirməsi, mərhələli həll planını qabartması Moskvanın konfliktin həllinə töhfə verəcəyi anlamına gəlməməlidir. Sergey Lavrovun mərhələli həll planı

***Məhəmməd Əsədullazadə:** "Kreml Paşinyan hakimiyyətinə hirsli olduğu üçün açıq kontekstdə danışır"*




üzrə "Kazan formulu"nu irəli sürməkdə məqsədi prosesin Rusiyanın nəzarətində olduğunu göstərmək və bu istiqamətdə çalışmaların getdiyini nümayiş etdirməkdir. Əgər Rusiya bu planı qəbul edirsə, niyə vassalı Ermənistandan ərazilərin qaytarılmasını tələb etmir?! Rusiyanın mövqeyi daim aydın olub. Problemi qabardır və həll variantlarını qəbul edir. Ancaq real bir irəliləmə kontekstində geri çəkilir. Razılaşmanı hər iki tərəfin öhdəliyinə buraxmaqla, Ermənistan tərəfinə stavka edir. S.Lavrovun da taktikası budur. Sadəcə, Kreml Paşinyan hakimiyyətinə hirsli olduğu üçün açıq kontekstdə danışır. Lavrov, təbii ki, separatçıların adını çəkə bilməz. Həll variantlarında separatçıların iştirakı qeyd edilmir. Ona görə də Lavrov birbaşa BMT qətnamələrinə əsaslanan həll variantlarının üzərində dayandı. Bütövlükdə, onun bu cür yanaşması separatçıların danışıqlarda iştirakına sədd çəkir. Görünən odur ki, separatçıların danışıqlarda tərəf olmasını həmsədrlər qəbul etmirlər".

***Vidadi ORDAHALLI***

# Mnasakanyanın Lavrova qarşı uğursuz kartı - erməni XİN-in "erməni tərəflərindən heç biri" ifadəsi nə deməkdir...

**Ermənistanın xarici işlər naziri Zöhrab Mnasakanyan Rusiyanın xarici işlər naziri Sergey Lavrovun Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı son bəyanatını şərh edərkən lüzumsuz ifadələr işlədib. Bildirib ki, "hər iki erməni tərəfi" onları qane etməyən razılaşmada iştirak etməyəcək.**



Ermənistan baş diplomatının tez-tez "erməni tərəflərindən heç biri" ifadəsini işlətməsi hansı məqsədi güdür? Danışıqlar prosesində neçə erməni tərəfi var?

Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə bildirdi ki, Lavrov son açıqlamasında Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə də toxunub: "Onun sözlərinə görə, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri hərbi əməliyyatın qızğın zamanında qəbul edilib. Həmçinin qeyd edib ki, həmin qətnamələrdə Azərbaycanın ərazi bütövlüyü tanınıb. Lavrov demək istəyib ki, BMT qətnamələrinin başlıca istiqaməti atəşkəsə nail olmaq istiqamətində olub. Lavrovun bu yöndə açıqlamasını bugünlərdə Putinin

***Hatəm Cabbarlı:** "Danışıqlar prosesində Azərbaycanın bir tərəf-müqabili var, o da Ermənistandır"*

SSRİ-ni bərpa etməyin zəruriliyi ilə bağlı işlətdiyi fikirlər kontekstində də dəyərləndirə bilərik. Sadəcə regionda deyil, dünyada ciddi proseslər gedir. Putin siyasi mühəndis rolunda çıxış etməyə başlayıb. Dünyanın qurulmasında Rusiyanın rolunun nədən ibarət olduğunu demək istəyir. Rusiyanın özü də çətin dönəmini yaşayır. Neftin qiymətinin kəskin enişi ilə həmin ölkənin postpandemiya dönəmində öz ayaqları üstündə dura bilməsi hələ şübhəlidir. Böhrandan çıxa bilsə, Rusiyanın dominantlığı arta bilər. Sergey Lavrovun həssas məqamda belə bir bəyanatla çıxış etməsi Azərbaycanın maraqlarına cavab verir. Bu səbəbdən də Mnasakanyan militarist bəyanatlar səsləndirməyə məcbur olub. Onun verdiyi bəyanatda iki erməni dövlətindən bəhs edilir. Ermənilərin son 30 illik münaqişə tarixində iki baxışı formalaşıb. Biri qondarma rejimin Ermənistana birləşdirilməsi, digəri isə qondarma rejimin "müstəqilliyini" dünya biriliyinə tanıtmaq. Erməni diplomatiyası bu iki amildən hər dəfə müxtəlif vasitələrlə istifadə edir. Maraqlarına cavab verəndə "DQR"-in Ermənistana birləşməsindən danışırlar. Başqa kontekst tələb olunda isə "DQR"in müstəqilliyindən danışırlar. Son açıqlamasında Mnasakanyan ikinci üsulu seçib. Birmənalı şəkildə deyə bilərik ki, danışıqlar prosesində iki erməni tərəfi yoxdur. Dağlıq Qarabağın erməni və azərbaycanlı icmaları var ki, onların da hansısa prosesə cəlbi birlikdə baş tuta bilər. Paşinyan da bu məsələni dəfələrlə qabardıb, ancaq formatın dəyişilməsinin mümkünsüzlüyü, hətta beynəlxalq qurumlar tərəfindən də bəyan olunub. Danışıqlar prosesində Azərbaycanın bir tərəf-müqabili var, o da Ermənistandır. Azərbaycanın torpaqlarını Ermənistan işğal edib. Bu baxımdan da biz haqlı olaraq müzakirəni Ermənistanla aparırıq. Lavrovun bəyanatı Ermənistanda isterikaya səbəb olub. Bu özünü ən bariz şəkildə Mnasakanyanın bəyanatlarında göstərir. Ermənistan nə qədər çalışsa da, ikinci erməni tərəfini prosesə cəlb edə bilməz. Rusiyanın açıq məzmunlu bəyanatı Ermənistanı ciddi narahat edirsə, deməli, qarşıda fərqli proseslər gedə bilər".

***Məhəmmədəli QƏRİBLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Bakı İrəvanı Qarabağ danışıqlarında mat vəziyyətinə salır - Lavrovun dilindən maraqlı fikirlər səsləndi...

**Dağlıq Qarabağ münaqişəsi ilə bağlı son günlərdə diplomatik sahədə yenidən kifayət qədər maraqlı proseslərin cərəyan etməsi müşahidə olunur. Xüsusən də Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin ATƏT-in Minsk Qrupunun həmsədrləri, eləcə də ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin iştirakı ilə videokonfrans formatında görüşü diplomatik fəallığa yeni təkan verib.**

Xatırladaq ki, görüş zamanı tərəflər qlobal koronavirus pandemiyasının bölgəyə təsiri və regiondakı ən son hadisələri müzakirə edib. Bundan başqa, tərəflərin cari ilin 30 yanvar tarixində Cenevrədə qəbul etdikləri birgə bəyanata uyğun olaraq, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesi üzrə növbəti addımlar nəzərdən keçirilib. Koronavirus infeksiyasının yayılması ilə bağlı öncədən planlaşdırılmış humanitar tədbirlərin həyata keçirilməsinin, eləcə də nazirlərin görüşünün və həmsədrlərin bölgəyə səfərlərinin təxirə salındığı qeyd olunub. Bununla belə, bu tədbirləri hazırlamaq üçün müvafiq işin davam etdirildiyi vurğulanıb. Rəsmi Bakı yeni görüş fonunda bildirir ki, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə Azərbaycanın mövqeyi dəyişməz olaraq qalır və o, münaqişənin BMT Nizamnaməsi və ATƏT-in Helsinki Yekun Aktında əks olunduğu kimi beynəlxalq hüququn norma və prinsipləri əsasında həllinə, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin həyata keçirilməsinə əsaslanır.

Məlumata görə, tərəflər təmasları saxlamağa və danışıqları mümkün qısa zamanda davam etdirməyə razılaşıb. Həmçinin, Azərbaycan substantiv danışıqların intensivləşdirilməsini tələb edir, çünki bölgənin hazırda üzləşdiyi vəziyyətdən çıxmağın başqa bir yolu mövcud deyil. ATƏT-in Minsk Qrupunun həmsədrləri sülh prosesinin hərbi nəticələr olmadan irəli aparılması imkanlarını nəzərdən keçirir. Qeyd edilənlərdən savayı, danışıqların detalları barədə məlumat verilmir. Amma belə bir vaxtda danışıqlarda nəyin müzakirə olunması barədə Rusiya xarici işlər naziri Sergey Lavrovun dilindən çox maraqlı fikirlər səslənib. "Qorçakov" adına xalq diplomatiyasına dəstək fondunun təşkil etdiyi onlayn dəyirmi masa zamanı Lavrov, əslində mərhələli həll prosesinin müzakirə predmeti olaraq qaldığını etiraf edib. Belə ki, 1993-cü ildə münaqişə zonasında hərbi əməliyyatlar zamanı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamə haqqında suala Lavrov bu cür cavab verib:"Qəbul olunmuş qətnamələr məlum sənədlərdir. Bunlar ilk növbədə hərbi əməliyyatların dayandırılması və danışıqlara keçidi nəzərdə tuturdu. Bəli, bunlarda Azərbaycan Respublikasının ərazi bütövlüyü təsdiq olunurdu. Bundan başqa, həmin qətnamələrdə hərbi əməliyyatları dayandırmağa və danışıqlara keçməyə çağırış səslənirdi. Bundan sonra danışıqlar aparılıb. 2001-ci ildə Ki-Uestdə danışıqların razılaşmaları olub, müxtəlif formatlarda razılaşmalar da olub. Artıq indi danışıqların Bakı-İrəvan, ATƏT-in Minsk Qrupunun 3 həmsədri və ATƏT-in hazırkı sədrinin şəxsi nümayənəsi formatı baş tutub". Lavrov, həmçinin, "Madrid razılaşmaları"nı, "Kazan prinsipləri"ni, ötən ilin aprelində Moskvada ATƏT-in Minsk Qrupu həmsədrlərinin də iştirak etdiyi Azərbaycan, Ermənistan və Rusiya xarici işlər nazirlərinin görüşü zamanı qəbul olunan layihələri xatırladıb:"Bu sənədlər ən aktual problemlərin həllini, Dağlıq Qarabağ ətrafındakı bir neçə rayonun azad olunmasını, nəqliyyat, iqtisadi və digər əlaqələrin açılmasını ehtiva edərək mərhələli həll yanaşmasını nəzərdə tutur. Beləliklə, mən əminəm ki, biz bu sənədlərin imzalanması qərarına nail olanda bu, BMT Təhlükəsizlik Şurası qətnamələrinin həyata keçirilməsinə yönəlmiş ən vacib addım olacaq. İndi razılaşmaq lazımdır və biz ATƏT-in Minsk Qrupunun həmsədrləri olaraq buna nail olmaq istəyirik". Bir daha xatırladaq ki, Lavrovun bu açıqlamaları Azərbaycanın Qarabağ məsələsinin sülh yolu ilə həllinə yanaşmasını özündə ehtiva edir.

"Eadaily.com" nəşri yazır ki, Cənubi Qafqazda uzanmış münaqişənin mərhələli həllini nəzərdə tutan sənəd hazırda Qarabağ münaqişəsinin nizama salınması ətrafındakı danışıqlar masasındadır. Nəşr qeyd edib ki, elə Lavrov da məhz buna işarə vurub Bu mənada, təsadüfi deyil ki, İrəvan dərhal bütün bunları təkzib etməyə çalışıb. Ermənistanın xarici işlər naziri Zöhrab Mnatsakanyan Sergey Lavrovun açıqlamasına cavab olaraq qeyd edir:"Rusiyalı həmkarım Sergey Lavrovun açıqlamasında çoxsaylı sənədlərə istinadlar var idi. Son iki ildə müzakirə olunan sənəd haqqında da deyildi. Bənzər yanaşma və təkliflər 2014 və 2016-cı illərdə olub və onlar Ermənistan tərəfi üçün qəbuledilməz olub. 2018-ci ildən bəri Qarabağ məsələsi ilə bağlı müzakirələrin tərəflərin müəyyən elementləri qiymətləndirməsi ətrafında məhdudlaşdırıldığını da deməliyəm. Biz təhlükəsizlik amilinin prioritet olduğu yanaşmalarımızdan bəhs edirik. Lavrovun açıqlamasında göstərilən ərazilər (söhbət Azərbaycanın işğal edilmiş 7 rayonundan - Ağdam, Kəlbəcər, Füzuli, Zəngilan, Qubadlı və Laçından gedir), hər şeydən əlavə, təhlükəsizlik zonasını və müdafiə xəttini təşkil edir. Heç kim bunun yenidən nəzərdən keçirilə biləcəyini və Qarabağ xalqının təhlükəsizliyinin şübhə altına alınacağını güman edə bilməz, kimsə kiməsə güzəştə gedib təhlükəsizliyi təhdid altına ata biləcəyini güman edə bilməz". Onun sözlərinə görə, Qarabağ münaqişəsinin nizamlanması üzrə danışıqlarda prioritet olan öz müqəddəratını təyinetmə prinsipi mövcuddur: "Öz müqəddəratını təyinetmə prinsipinin ifadəsi statusun dəqiqləşdirilməsini, məhdudsuz iradə azadlığının təmin edilməsini nəzərdə tutur. Sülh tənzimlənməsi qarşılıqlı güzəştlər əsasında mümkündür. Ermənistan tərəfindən heç vaxt birtərəfli güzəştlər olmayacaq, xüsusən də indi - təhlükəsizlik təhdidinin hələ də real olduğu bir vaxtda. Qarşılıqlı güzəştlər mütənasib olmalıdır, burada təhlükəsizlik və status elementlərinin tam əksini görürük. Bu bizim mövqeyimizdir və belədir. Lavrov öz mövqeyini təqdim etdi, mən də öz mövqeyimi". Amma elə erməni mediası yazır ki, əslində, Ermənistan XİN rəhbəri yalan danışır. Erməni siyasi analitik Karen Bekaryan bu xüsusda bildirir: "Ermənistanın strateji tərəfdaşı, müttəfiqi, ATƏT-in Minsk Qrupunun həmsədri Rusiyanın xarici işlər naziri bəyan etdi ki, Qarabağ münaqişəsinin mərhələli həll variantı danışıqlar masasında müzakirə olunur və bunun ətrafında razılaşma BMT Təhlükəsizlik Şurasının qətnamələrini həyata keçirmək yolunda addım olacaq. Lavrovun Dağlıq Qarabağ münaqişəsi danışıqlarının mərhələli variantla həlli haqqında bəyanatı danışıqların məhz bu xüsusda olduğunu göstərir. Elə bu səbəbdən Lavrovdan sonra yalan danışan Ermənistan xarici işlər naziri istefa verməlidir. Rusiya xarici işlər nazirinin dedikləri reallığa uyğun gəlmirsə, onda bu, sadəcə Ermənistan-Rusiya ikitərəfli münasibətlərinin tam uğurusuzluğunun göstəricidir, çünki dezinformasiya diversiyası heç vaxt səbəbsiz təşkil olunmur. Əgər Rusiya xarici işlər nazirinin dedikləri reallığa uyğun gəlirsə, onda Ermənistanın milli, dövlət maraqlarının uğurusuzluğu və öz cəmiyyətinə ardıcıl olaraq yalan danışmaqla işimiz var. Hər iki halda xarici işlər naziri istefa verməli və ya tutduğu vəzifədən uzaqlaşdırılmalıdır". Burada ekspertlər xatırladır ki, Sergey Lavrov son zamanlar Paşinyan administrasiyasını münaqişəni uzatdığı üçün sərt tənqid edir. Hətta Münhen Təhlükəsizlik Konfransında bu yöndə Ermənistan təmsilçilərinə xəbərdarlıq belə edildi. Çünki Moskva qəbul edir ki, Ermənistan münaqişənin həllində səyləri artırmalı və aqressiv siyasətdən əl çəkməlidir. Əks təqdirdə Qafqazda heç də Rusiyanın marağında olmayan proseslər cərəyan edə bilər. Rəsmi Moskva bu mənada münaqişənin mərhələli şəkildə həllinə tərəfdir. Ümumiyyətlə, praktiki nöqteyi-nəzərdən də münaqişənin mərhələli şəkildə həlli ən məqbul variantdır. Sadəcə, Ermənistanın da bunu qəbul edib konfliktin çözümündə əməli addımlar atması vacibdir. Münaqişənin mərhələli şəkildə dinc yolla həllinin tək variantı isə Ermənistanın işğalçı qoşunlarının torpaqlarımızdan çıxarılmasıdır. Erməni politoloq Ayk Martirosyan isə qeyd edir ki, Moskvanın mərhələli həlli qabartmasına Ermənistan müqavimət göstərə bilməyəcək. Martirosyan Rusiyanın Minsk Qrupunun aktiv həmsədrlərindən biri olduğunu xatırladıb:"Aydındır ki, bütün erməni hökumətləri özlərini vassal kimi apardılar və Ermənistanı "böyük qardaş"dan ömürlük asılı vəziyyətə saldılar. Bu da Ermənistana olan marağı və Rusiyanın nəzərində onun dəyərini azaltdı.

**Bütün bunlar Azərbaycana üstünlük qazandırdı, çünki o, Rusiya ilə dost, amma qarşılıqlı hörmətə malik münasibətlər qurdu. Buna görə də Rusiya Ermənistanın maraqlarını nəzərə almadan məntiqi olaraq Azərbaycana üstünlük verməlidir. İrəvan Qarabağın üzərində tam nəzarət əldə etmək üçün oraya daha çox ordu yerləşdirir. Bu, ərazilərin onun təsiri altından çıxmasına və Moskvanın qucağına atılmasına gətirib çıxaracaq. Yeri gəlmişkən, bu istiqamətdə işlər aparılır. Məhz bunun sayəsində Azərbaycan tərəfi Ermənistan üçün uğurlu diplomatik tələ yaradır. Moskvanın da Bakının yanında yer alması Azərbaycanı istədiyi nəticəyə yaxınlaşdırır".**

Beləliklə, qeyd edilənlər Qarabağ danışıqlarında indi Azərbaycanın daha üstün mövqedə olduğunu bir daha aydın nümayiş etdirir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap olunur.**

**Koronavirus pandemiyası ilə bağlı Ermənistan üçün yeni ciddi çətinliklər meydana çıxıb. Belə görünür ki, pandemiya bu ölkənin sosial-iqtisadi çöküşünü sürətləndirməklə yanaşı, başqa bir rakursdan da Ermənistan üçün ciddi çətinliklər yaradacaq. Söhbət xaricə iş dalınca gedən ermənilərin geri qayıtmasından gedir.**

# Pandemiyanın Ermənistanı çökdürəcək daha bir dəhşətli fəsadı üzə çıxır...

Hazırda Ermənistanın mövcud durumu ölkəyə qayıdan erməniləri işlə və maddi tələblərin ödənilməsi ilə təmin etməyə imkan vermir. Elə bu səbəbdən geri qayıdanların ölkədə yeni sosial gərginlik yaratması qaçılmaz sayılır. Söhbət, xüsusən də Rusiyada olan çoxsaylı erməninin geri qayıtmasından gedir. Ermənistanın Diasporla İş üzrə Baş Komissarı Zareh Sinanyan məsələ ilə bağlı bildirir:"Rusiyada nə mənzil, nə də iş yeri olan və vətəninə dönmək istəyən çox sayda erməni var. Hazırda onlar üçün yaşayış yeri axtarırıq. Problem həm də xaricdəki bir çox erməninin koronavirusa yoluxmuş olması ehtimalıdır, bu isə vətəndaşlığı olmayanlara bir çox yerdə tibbi xidmət göstərilməməsi ilə əlaqələndirilir. Bu mənada problem, yumşaq desək, ciddidir". Yeri gəlmişkən qeyd edək ki, artıq uzun müddətdir Moskvadakı səfirlik, erməni mediası Rusiya hava limanlarında qalan ermənilərin əlverişsiz vəziyyətinə dair materiallar dərc edir. Hətta bu durumda Ermənistandan Rusiyaya pul köçürmələrinin həcminin artdığı da məlumdur. Ermənistanın "Lragir.am" nəşri yazır ki, əvvəllər xaricə işləməyə gedənlər ailələrinə pul göndərirdisə, indi ailələr orada qalan işsizləri üçün Rusiyaya pul göndərirlər: "Dünyadakı mövcud vəziyyət epidemiya və iqtisadi böhranla bağlı mürəkkəbdir, lakin Rusiyada bu böhran iki qat daha çoxdur. Rusiya sanksiyalar altındadır, digər tərəfdən, enerji qaynaqları "iynəsində oturan" bir xammal ölkəsidir. Hazırda bu enerji ehtiyatları nəinki qiymətsizdir, həm də tələbat belə yoxdur. Bu problemlərə Rusiya idarəetmə sisteminin səmərəsizliyi, geosiyasi ambisiyaları və xəzinədarlıqdan mənimsəmələrin kosmik miqyası da əlavə olunur. Rusiya fondlarında yığılan böyük miqdarda vəsait xalqın ehtiyaclarını ödəməyərək bu üçbucaqda xərclənir. Üstəlik, rusiyalı ekspertlərin fikrincə, pul kütləsi ölkədən çıxarılır.

Rusiya rəsmiləri önümüzdəki aylarda böyük bir iqtisadi böhranın və on milyonlarla işsizliyin olacağını proqnozlaşdırır. Həm beynəlxalq, həm də yerli ekspertlər Rusiyadakı iqtisadi böhranın çox ciddi nəticələrinin olacağını qeyd edirlər. Cinayət artmaqdadır, bu da artıq başlanmış sosial-iqtisadi problemlərlə birbaşa ələqəlidir.

Bu şəraitdə təkcə epidemiya səbəbindən Rusiyada qalanların deyil, Rusiya ermənilərinin də taleyi problemdir. Repatriasiya Ermənistanın ən böyük dövlət məsələlərindən biri elan edilmişdi və indi baş verməzsə, bəs nə vaxt olacaq? Bu təkcə Rusiyadakı ermənilərə aid deyil. Bunun üçün vəsaitlərlə qənaət etmək lazım deyil. Buna görə vəsait mənbələrinə qənaət edilməməlidir. Amma problem həm də odur ki, Ermənistanda yetərincə vəsait yoxdur".



Ermənistanın "168 jam" qəzeti də vəziyyətin acınacaqlı olduğunu yazır:"Ermənistan insanların hərəkətinə və müəssisələrin işinə tətbiq olunan sərt məhdudiyyət şəraitində itkilərin miqyasını müəyyən etməyə çalışır. Martın 16-dan ölkədə fövqəladə vəziyyət elan edilib və müəssisələrin böyük hissəsi - iri konsernlərdən tutmuş xırda biznesə qədər fəaliyyətini dayandırıb. Fövqəladə vəziyyət tətbiq edildən sonra da yoluxanların sayı kəskin artıb. Hazırda vəziyyət ümumilikdə nəzarət altında olsa da, səhiyyə sistemi üzərinə düşən yükün öhdəsindən gələ bilmir. Bu səbəbdən Ermənistan yoluxma sayına görə regionun üç ölkəsi arasında uzun müddət liderliyi qoruyub. Bu durumda iqtisadiyyatda problemlər də özünü göstərir. Beynəlxalq Valyuta Fondu dünyanın 150-dən çox ölkəsi, o cümlədən də Ermənistan üçün mənfi göstəricilər ehtimal edir. Eniş 1,7 faiz təşkil edəcək. İqtisadçı Vahan Xaçatryan isə qeyd edir ki, bu şəraitdə Rusiyadan ermənilərin dönüşü ciddi problem olacaq:"Biz iqtisadiyyatımızın bərpa olunmasının yalnız bizdən asılı olmayacağını nəzərə almalıyıq. Çox şey bizim tərəfdaşlarımızın, ilk növbədə Avrasiya İqtisadi İttifaqındakı tərəfdaşlarımızın qeyd edəcəyi dinamika ilə şərtlənəcək. 2009-cu ildə Rusiya iqtisadiyyatındakı tendensiyalar aydın şəkildə bizim iqtisadiyyatımızda təzahür edir". Ekspert bildirib ki, Rusiya koronavirus pandemiyasını çox ağır yaşayır:"Bizim həm ixrac, həm də maliyyə vasitələrinin generasiyası üçün əsas bazarımız Rusiyadır. Aydındır ki, indi Rusiyada məcmu tələbin azalması baş verir. İndi təsəvvür eləsək ki, pandemiyanın öhdəsindən gəlmişik, hətta bu halda belə bizə əvvəl gələn turistlər daha gəlməyəcək. Ən dəhşətlisi isə Rusiyada işləyənlərin geri qayıtması və buradan göndərilən pulların azalmasıdır. Böhran şəraitində bütün bunlar Ermənistan üçün böyük problemlər vəd edir".

Qeyd edilənlər qarşıdakı günlərdə Ermənistanı ciddi fəlakətin gözlədiyini deməyə əsas verir. Bu mənada, İrəvanın pandemiya şəraitində ciddi çətinliklər yaşaması qaçılmaz sayılır.

***Nahid SALAYEV***

# Polisin xidməti əxlaqı müqəddəs dəyərlərimizdəndir...

*"Nə deyirlərsə-desinlər, nə ad qoyurlarsa-qoysunlar, bəşəriyyətin qüsuru iman zəifliyindəndir. İmansızlıq onun sağalmaz yarasıdır. İman sahibi olun!*

***Mehmet Akar***

**Karantin rejiminin uzadılması gözlənilirdi. Tarixən, yanılmıramsa, XIV əsrdə İngiltərədə başlayan taun, vəba və xora epidemiyalarına görə Venetsiyada karantin rejimi elan olunmuşdu. Epidemiyaya qarşı məhdudlaşdırıcı kompleks tədbirlərin həyata keçirilməsi və yoluxma ocağından tam təcrid olunma 40 günə hesablanırdı.**

Karantin italyan mənşəli söz olub, "quaranta giorni"- qırx günə hesablanan "qara ölüm" mənasını daşıyırdı (Dünyasını dəyişənlər yandırıldığına görə belə adlanırdı). 40 gün Venetsiya limanına daxil olan gəmilər müəyyən məsafədə lövbərini atıb yüklərin bu vaxt ərzində boşaldılması və ya yüklənməsi üçün kifayət edirdi. Adətən taun və digər ağır epidemiyaların inkubasiya dövrü ilə lokallaşdığı vaxt 40 gün davam edirdi. Bu, İlahi kəlamlarda da iqtibas olaraq ehtiva edilib. "Onda taun, xora var. Təmizlənməlidir!... Ona toxunmayın, kənarda qalsın..."

XVII əsrdə isə bu xəstəliklər dünyanı, daha çox Avropanı çənginə almışdı (Bu gün olduğu kimi. Tarix hamıya görk olsun deyə təkrar olunur. Hələ bu harasıdır! Qisas qiyamətə qalmaz!) Ağlasığmaz ərzaq qıtlığı, aclıq baş vermişdi... Ölkəyə taxıl məhsulları daxil olunmurdu... Karantin qaydalarına riayət etməyənlərlə də sərt davranılırdı. Maarifləndirmə, xəbərdarlıqlar vəziyyəti dəyişə bilmirdi. Sərt cəzaların tətbiqinə zərurət yaranmışdı. Məs.: Cenevrədə karantin qaydalarını pozanlar yandırılırdı və yaxud, şəhərdən çıxmaq hüququ məhdudlaşdırılırdı. Həmin dövrlərdə də karantin rejimində vəzifənin məsuliyyət ağırlığı daha çox həkimlərin və əhalinin təhlükəsizliyinə cavabdehlik daşıyan polislərin çiyninə düşürdü. Belə bir vaxtda hökumət karantin rejimi ərzində cinayətkarlara sərt cəza tədbirlərinin görülməsinə icazə verdi...

XXI əsrdə Hindistanda qaydanı pozanlara qarşı istifadə edilən sərt kötək buna canlı sübutdur. Cəzanın fobiyası olmasa, hörməti də olmaz!

Azərbaycan polisi və həkimlər, cəfakeş şəfqət bacıları 20 gündən çox vaxt ərzində xidmətini ekstremal şəraitdə həyata keçirir. Demək olar ki, fövqəladə bir həyat yaşayırıq. Polislərimiz, həkimlərimiz vəzifələrinin mahiyyətini, məsuliyyətini anlayırlar. Anlayırlar ki, bu gün üçün həyati vacib bir vəzifənin icrasından bir addım kənara çəkilsələr, nəticəsi artan faciələrlə davam edəcək. Şərəfli peşə sahiblərinə verilən təlimatlar lakonikdir, başa düşülən və vətənə sədaqətin, xalqa hörmətin, içilən anda sədaqətin nümayiş etdirilməsidir. Cinayətkarlıqla mübarizədə, əsas və spesifik fəaliyyət istiqamətlərindən müvəqqəti kənara çəkilən polislərin nəzarəti altına aldıqları ərazinin boşluğundan istifadə edən dar təfəkkür sahibləri, əvvəllər məhkum olunmuşlar bu həyacanlı günlərdə cılız hisslərini həyata keçirməkdən həya etmirlər. Bəzi ərazilərin polisin gücü ilə qapanmadığını zənn edən seyrək düşüncəyə malik ünsürlər cəmiyyətə zidd əməllərini törətməkdən usanmazmışlar. Bu sahəyə bələd olan bir QHT rəhbəri kimi bəyan edirəm ki, Daxili İşlər Orqanlarının kollegiyasına sədrlik edən çox hörmətli nazir Vilayət müəllim başda olmaqla, kollegiyanın və hökumətin qərarının icrasını təmin etmək istiqamətində qüvvələr səfərbər olunub. Mobil polis qruplarının mərkəzləşmiş qaydada idarə olunması gözəgörünməz "düşmənə" meydan oxumaqdır. Bu güc, fəxri cahan Peğəmbərimizin "Vətəni sevmək imandandır" məşhur kəlamı ilə bağlıdır...



Bu gün pandemiyanın dünyaya vurduğu (mənəvi və yaxud maddi, vandalizmlə yadda qalan zərərlərdən) ziyan II Dünya Müharibəsi dövründə alman faşistlərinin vurduğu ziyandan və yaxud Azərbaycana Ermənistan tərəfindən törədilən insanlıq əleyhinə olan genosiddən ağır deyil. Fərq birində düşmən bəlli, lakin hiyləgər, ikincidə isə düşmən aşkar olmasa da niyyəti bəllidir. Qurtulmaq və qorunmaq üçün tövsiyələr səmərə verməyəndə, sərt tələblər gözübağlı "Ədalət İlahəsi"nə xas tərzdə icraya yönəlməlidir. İndiki halda cəzanın sərtləşməsinə ehtiyac var. Bu, repressiya xarakteri daşımamalıdır.

Riayət etsək qoruna bilərik. Biz qaydalara və polisin qanuni tələblərinə tabe olmaq əvəzinə cılız hisslərimizin yedəyində gedir, ona baş əyməklə sonradan o xəstəliyin caynağına düşürük. Haşiyə çıxıram:

İbrətamiz bir hikmətli hekayət yadıma düşdü: "Böyük islam tarixi" əsərinin müəllifi Abdullah Zapsu bir zabit yoldaşından eşitdiyini nəql edir. Zabit I Dünya müharibəsində Bitlis yaxınlığındakı döyüşlərdə ruslara əsir düşən türklərdən olub. Sibirin əsir düşərgələrində bir islam alimi də olub. Rus ordusunun komandanı Nikolay Nikolayeviç əsirləri təftiş etməyə başlayanda hamı qalxsa da, həmin alim oturduğu yerdən qalxmır. Komandan bir bəhanə ilə təkrar islam aliminin qabağından keçəndə o yenə qalxmır. Üçüncü dəfə alimin qarşısında dayanıb tərcüməçi vasitəsilə sual edir:

- Məni tanımadın?
- Tanıdım, çarın qohumu Nikolay Nikolayeviç, Qafqaz cəbhəsinin baş komandanısız.
- Bəs nəyə görə qalxmadın, məni təhqir etdin?
- Xeyr. Sadəcə müqəddəs dəyərlərimizin əmrinə tabe oldum.
- O hansı dəyərlərdir ki, sən ona tabe oldun, amma əsir olduğun düşərgədə mənə tabe olmadın?
- Mən müsəlmanam, qəlbimdə iman var. İmanlı bir şəxs imansızdan üstündür. İmansızın qarşısında qalxsaydım, müqəddəs sayılan dəyərlərimə hörmətsizlik etmiş olardım. Ona görə də qalxmadım.
- O halda məni imansız adlandırmaqla, hərəkətinlə şəxsiyyətimi, ordumu və çarı təhqir etmiş olursan.

Hərbi məhkəmə qurulur. Ətrafındakı türk, alman və avstriya zabitləri israrla "üzr istə" desələr də, "Mən imanımın əksinə hərəkət edə bilmərəm"-deyə üzr istəməkdən vaz keçir.

Məhkəmə "güllələnərək edam olunsun" qərarını verir. İslam alimi sonda dəstəmaz almaq və iki rükət namaz üçün 15 dəqiqə vaxt istəyir. Alimin vəsatəti təmin edilir... Amma qəribə bir hal yaşanır. Baş komandan Nikolay Nikolayeviç dərk edir ki, islam aliminin hərəkətində onu aşağılayacaq heç nə yoxdur. Alim imanına və dininə bağlılığına görə belə davranmışdır -deyə onu əfv etməyi tapşırır...

Azərbaycan polisinin karantin rejimindəki xidməti əxlaqı yüksək dəyərləndirilir, imanla həyata keçirilir. Həm təhlükəsizlik təmin edilir, həm də "Operativ Qərargahın" tələblərini icra etmək missiyası məsuliyyətlə yerinə yetirilir. Vətəndaşlarla nəzakətli davranılır, hərbi intizamla müşayət edilən xidmət zamanı səhlənkarlıq halları yoxdur. Polisin vəzifəsini icra edərkən peşəkarlıq dəyərləri, 100 il ərzində qazanılan təcrübəsi, cinayətkarlıqla mübarizə ənənəsi mənəvi dəyərlər qədər əhəmiyyət kəsb etdiyindən kiminsə qarşısında "Ayağa qalxmaq", kiminsə zahiri görünüşünə görə "bağışlamaq" hüququ qapanıb. Polisin etik davranış qaydaları, Polis və Əməliyyat-Axtarış fəaliyyəti haqqında qanunların tələbləri, insan hüquq və azadlıqlarının hamılıqla tanınmış normaları və prinsipləri ona mənəvi dəyərlər qədər müqəddəsdir. O, bu dəyərlərdən kənar fəaliyyətini qura bilməz.

Amma, hamı üçün ağır olan belə bir vəziyyətdən sui-istifadə etmək istəyənlər də az deyilmiş. Belələrinə nə ad vermək olar? Saxta icazələr, avtomobilin baqajında gizlənib ləyaqətini alçaltmaqla davam edən faktları eşitdikcə təəssüf hissi keçirməmək olmur. Qaydanı pozan belə dərdsiz və məfkurəsiz həmvətənlərimiz müqəddəs dəyərlərimizə və imanımıza saygısızlıq göstərənlərdir. Axı, milli dəyərlərimizə hörmət etmək və vətəni sevmək imandandır, imansızlıq isə "medalın" başqa tərəfidir, polisin və həkimlərin fədakarlıqlarına seyrçi mövqedə durmaqdır.

Saygılı oxucular! İnsan həyatı çox şeyi diqtə edir. Bircə adamın əlindən tutub ona yol göstərmək, bir adamın kədərinə, ağır gününə vəsilə olmaqdan gözəl nə ola bilər?!. İndiki halda insan-insanın həyata qovuşmasına gücü və imkanı yetdiyi qədər dəstək olsa, milyon sərvətə dəyər. Bu xeyirxahlıq Allah yolunda sədəqəyə bərabərdir. Polislərimiz və həkimlərimiz bu İlahi mükafatın sahibləridir. Bu gün hər birimizin əlində bacarığına uyğun xeyirxahlıq məşəli olmalıdır!

Tanrı milllətimizi qorusun, əmniyyətimizi narahat günlərin hesabına təmin edən Azərbaycan polisinə, min bir əziyyətlə sağlamlığımızın keşiyində duran həkim personalına Uca Rəbbimiz dayaq olsun! Tezliklə bu bəla sovuşub getsin!

***Şəmsəddin ƏLİYEV***
***"Polisə Dəstək"***
***İB-nin sədri***

# Koronavirus dövründə Azərbaycanın daha bir üstünlüyü - fəal xarici investisiya qurumlarının say artımının əsasları...

**Aprelin 1-nə Azərbaycanda fəaliyyəti aktiv olan xarici investisiyalı kommersiya qurumlarının sayı ötən ilin eyni dövrü ilə müqayisədə 1,5 dəfə çox olub. Bu, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin yaydığı məlumatda qeyd olunur.**

*"Qeyri-neft sektoruna xarici investorların cəlbi üçün vergi və digər sahələrdə..."*

## *Pərviz Heydərov: "Azərbaycan kimi inkişaf etmək yoluna qədəm qoymuş ölkələr investisiya cəlbediciliyini artırmağa daha çox can atırlar"*

Bildirilir ki, aprelin 1-nə qeydiyyatda olan xarici investisiyalı kommersiya hüquqi şəxslərin 18,8 faizi xarici hüquqi şəxslərin Azərbaycan Respublikasındakı nümayəndəliyi və ya filialı, 77,3 faizi məhdud məsuliyyətli cəmiyyət, 0,8 faizi səhmdar cəmiyyət, 0,2 faizi kooperativ və 2,8 faizi isə digər təşkilati-hüquqi formalarda olub.

Cari ilin mart ayında 173 xarici investisiyalı kommersiya hüquqi şəxs dövlət qeydiyyatından keçib. Bu isə keçən ilin eyni dövrü ilə müqayisədə 1,2 dəfə (137) çoxdur. Martda qeydiyyata alınan 173 xarici investisiyalı kommersiya qurumunun 170-nin fəaliyyəti aktiv olub, 3-nün fəaliyyəti dayandırılıb.

Qeyd edək ki, bu ilin martında dövlət qeydiyyatından keçmiş xarici investisiyalı kommersiya hüquqi şəxsin 36,4 faizi xidmət, 16,7 faizi ticarət, 8,6 faizi sənaye, 6,9 faizi tikinti, 2,3 faizi kənd təsərrüfatı, 1,1 faizi nəqliyyat, 2,8 faizi rabitə, 24,8 faizi digər sahədə fəaliyyət göstərir.

İqtisadçı-ekspert Pərviz Heydərov bildirdi ki, investisiya mövzusu dünyada çox həssas hesab edilən bir mövzudur. Xüsusilə Azərbaycan kimi inkişaf etmək yoluna qədəm qoymuş ölkələr investisiya cəlbediciliyini artırmağa daha çox can atırlar. Çünki investisiyasız inkişaf mümkün deyil: "Azərbaycanın bugünkü inkişaf səviyyəsinə gəlib çıxmağına səbəb məhz xarici investisiyalar olub. On illər Azərbaycanda dövlət səviyyəsində mövcud investisiya mühitinin daha da yaxşılaşdırılması üçün xeyli iş görülür. Xüsusən də qeyri-neft sektoruna xarici investorların cəlbi üçün vergi və digər sahələrdə yumşaltmalar edilməkdə, güzəştli xarakter daşıyan addımlar atılmaqdadır.



Qeyri-neft sektoruna xarici investisiya axınının artırılması üçün daha çox güzəştlər edilsin, hətta müəyyən bir müddət ərzində qeyri-neft sektoruna maliyyə yatıran xarici sahibkarlara vergi belə tətbiq edilməsin.

Təxminən 3-5 il vaxt ərzində onlara tam azad fəaliyyət üçün şərait yaradılsın. Müxtəlif regionlarda azad iqtisadi zonalar yaradılsın. Elə bir şərait yaratmaq lazımdır ki, Azərbaycanda bazara girən sahibkar bilsin ki, 3 il ərzində ya vergidən tam azad olunacaq, ya da minimal məbləğdə vergi ödəyəcək. Qoy o sahibkar burada müvafiq infrastrukturu qursun, gəlirini götürsün, sonra isə biz gəlir götürərik".

***Günel CƏLİLOVA***

# Koronavirusla mübarizə dövründə növbəti zəruri sosial dəstək addımı - adına VÖEN olan bütün vətəndaşlar 190 manat yardım alacaq

**Hökumət koronavirusla bağlı daha bir sosial addım atıb. Adına VÖEN olan vətəndaşlar bundan istifadə etmirsə, yaxud qısamüddətli hər hansı məqsəd üçün onlara lazım olub və indi istifadə etmirlərsə, onlar da 190 manat birdəfəlik yardım ala bilərlər. Bunun üçün sadəcə VÖEN-ləri bağlamaq kifayətdir.**



## *Əli Əlirzayev: "Hökumətin bu sosial xarakterli addımını müsbət dəyərləndirirəm"*

Bu barədə mətbuata açıqlama verən Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Anar Kərimov bildirib ki, 190 manatlıq müavinətdən bəhrələnmək istəyən vətəndaşlar adlarına olan VÖEN-i ləğv etdirməlidirlər: "10 minlərlə vətəndaş var ki, əmək müqavilələri, VÖEN-ləri olub. Hətta bəzi hallarda azyaşlı uşaqlarının adına da müraciətlər olub. Bu sistem də kontingentin sayını nəzərə alaraq kompyuterin üzərindən aparılır. Sistemlər Vergilər Nazirliyi və digər qurumların altsistemləri ilə inteqrasiya olunub. Ona görə vacibdir ki, vətəndaşlarımız əgər öz VÖEN-lərindən istifadə etmirlərsə, yaxud qısamüddətli hər hansı məqsəd üçün onlara lazım olub və indi istifadə etmirlərsə, onlar bizə kömək etsinlər. Müraciət edib qısa müddətdə o sistemlərdə VÖEN-ləri-ni ləğv etdirsinlər, bağlatdırsınlar. Bu müavinətdən bəhrələnmək istəyirlərsə, mütləq müraciət edərək o VÖEN-lərə xitam versinlər".

A.Kərimov bildirib ki, VÖEN-i ləğv edilən vətəndaş 190 manat müavinət üçün yenidən müraciət edə bilər: "Vətəndaşlar artıq 190 manat üçün müraciət edib, sonra adlarına VÖEN olduğunu biliblərsə, yenidən müraciət edə bilərlər. VÖEN ləğv edildikdən sonra vətəndaşın hər bir müraciəti yeni müraciət kimi baxılacaq və altsistemlərdə yenidən yoxlanacaq. Məlumat əgər dəyişdirilibsə, meyar artıq müsbətdirsə, müraciətin də cavabı, ümumilikdə, müsbət olacaq".

Nəzərə almaq lazımdır ki, bir çox vətəndaşın adına VÖEN olsa da, ondan aktiv istifadə etmirlər. Buna baxmayaraq, sözügedən imkandan yararlana bilmirlər. O baxımdan məlum qərar bir çox vətəndaşa 190 manat birdəfəlik yardım almaq imkanı yaradacaq.

Məsələyə münasibət bildirən iqtisadçı-alim Əli Əlirzayev hökumətin bu sosial xarakterli qərarına müsbət yanaşdı: "Həqiqətən də elə vətəndaşlar var ki, adına VÖEN olsa da, ondan aktiv şəkildə istifadə etmirlər. Hər üç aydan bir hesabat verirlər. Nəticədə indiki vaxtda belələri bu imkandan yararlana bilmirlər. Ona görə də sözügedən qərar imkan yaradacaq ki, onlar da 190 manat birdəfəlik yardım alsınlar. Digər tərəfdən, elələri var ki, iş yerində VÖEN-i var, amma gəliri yoxdur. Bələlərinə iş yerindən əməkhaqqı verilməlidir.

*"Müəssisənin nə qədər işçisi varsa, onlara minimum əməkhaqqı verilməlidir"*

Müəssisənin nə qədər işçisi varsa, onlara minimum əməkhaqqı verilməlidir.

Dövlət bu məqsədlə müvəqqəti olaraq büdcədən vəsait ayırmalıdır. Nəzərə almaq lazımdır ki, sahibkarlara bu məqsədlə dövlət tərəfindən yardım edilir. Bu ona görə edilir ki, sahibkarlar işçilərə əməkhaqqı versinlər. Hesab edirəm ki, buna nəzarət artırılmalıdır. Ancaq eləlari də var ki, hardasa işləmir, amma adına VÖEN var. Belə şəxslər isə adlarına olan VÖEN-i ləğv etdirməlidirlər. Sonra lazım gəlsə, yenə VÖEN aça bilərlər. Bütün hallarda, hökumətin bu sosial xarakterli addımını müsbət dəyərləndirirəm".

***Vidadi ORDAHALLI***

# Azərbaycanda virusdan sağalanların günbəgün say artımı dönüşü olmayan prosesə çevrilə biləcəkmi... rəylər...

**Məlum olduğu kimi, ölkəmizdə son iki həftədə koronavirus infeksiyasından müalicə olunaraq sağalanların sayı bu infeksiyaya yoluxanların sayını üstələməkdə davam edir. Son günlər sağalanların sayının yoluxanların sayını 2-5 dəfə üstələdiyinin şahidi olmuşuq.**

***Paşa Qəlbinur:*** *"Bundan sonra proses ancaq müsbətə doğru gedir"*

***Nəsib Quliyev:*** *"Sağalanların sayında bu dərəcədə artımın olması dönüşü olmayan prosesə çevrilə bilər, amma..."*

Nazirlər Kabineti yanında Operativ Qərargahdan baki-xeber.com-a bildirilib ki, Azərbaycan Respublikasında 44 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb, 74 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

Operativ Qərargahdan bildirilənə görə, hazırkı dövrədək ölkəmizdə 1480 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 865 nəfər müalicə olunaraq sağalıb, 20 nəfər vəfat edib, 595 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 14 nəfərin vəziyyəti ağır, 20 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir. Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 102.764 test aparılıb.

Gördüyünüz kimi, hər gün koronavirus infeksiyasına yoluxanlar arasında müalicə olunaraq sağlamlığına qovuşanların sayında müsbət dinamika mövcuddur. Sağalanların statistikası gündən-günə müsbətə doğru dəyişməkdə davam edir.

Azərbaycanda virusdan sağalanların günbəgün say artımı dönüşü olmayan prosesə çevrilə biləcəkmi?

Tibb elmləri doktoru, professor Paşa Qəlbinurun qənaətinə görə, proses sağalmaların daha yüksək dinamika ilə artması, yoluxmaların isə sürətlə azalması ilə müşayiət olunacaq. "Dövlət səviyyəsində həyata keçirilən məqsədyönlü tədbirlər artıq özünün müsbət bəhrəsini verir. Son günlər virusa yoluxanların sayının kəskin surətdə azalması, müalicə olunaraq sağalanların sayının isə yüksək dinamika ilə artması deməyə əsas verir ki, bundan sonra proses ancaq müsbətə doğru gedir. Hesab edirəm ki, pandemiyanın acı təsiri yavaş-yavaş ölkəmizi tərk edir. Biz bunu sağalanların timsalında görə bilərik".




P.Qəlbinur son günlər sağalma prosesinin sürətlə getdiyini vurğulamaqla yanaşı, onu da qeyd etdi ki, vətəndaşlar yenə də karantin rejiminə ciddi əməl etməli və sosial təcrid məsələsinə xüsusi önəm verməlidirlər.

K.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun direktoru, tibb elmləri doktoru, professor Nəsib Quliyev hesab edir ki, insanlar təhlükəsizlik tədbirlərinə əməl etsələr, biz daha çox müsbət irəliləyişə nail ola biləcəyik: "Hesab edirəm ki, proseslərin müsbət istiqamətdə getməsi, sağalanların sayında bu dərəcədə artımın olması dönüşü olmayan prosesə çevrilə bilər. Amma hər kəs bilməlidir ki, biz bu nəzarəti, təhlükəsizlik, karantin tədbirlərini birdən-birə ölkəmizdə dayandırsaq, ikinci dalğası baş verə bilər. Yəni bu virusla mübarizə ilə bağlı mövcud qaydalara əməl edilməsə, Allah eləməsin, ikinci dalğa, növbəti yoluxma halları baş verə bilər. Ona görə də, normal halda, dünyanın mövqeyi belə olmalıdır ki, bu xəstəlikdən qorunmaqla vaxt əldə etmək və bu virusa qarşı vaksin əldə edilənə qədər vaxtı udmaq lazımdır. Vaksin əldə ediləndən sonra iş asanlaşır və vaksinasiya yolu ilə bu virusa yüz faiz qalib gəlmək olar".

N.Quliyev hesab edir ki, istədiyimiz nəticəni tam əldə etməyimiz üçün bu və ya digər formada qoruyucu, mühafizə tədbirləri davam etdirilməlidir.

***İradə SARIYEVA***

# ÜST qəpik və kağız pullarla ünsiyyəti də rəsmən təhlükəli elan etdi - Nağd puldan imtina üçün daha bir təkan...

**Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) COVID-19-un qəpik və kağız pullar vasitəsilə ötürülə bilməsinin mümkünlüyünü açıqlayıb. Bununla bağlı ÜST-in Azərbaycandakı nümayəndəliyi bildirib ki, hazırda COVID-19 virusunun qəpik və ya kağız pullar vasitəsilə ötürülə biləcəyini təsdiq və ya təkzib edən fakt yoxdur.**

*"...nağd hesablaşmalar müəyyən risqlər yarada bilər"*

***Adil Qeybulla:*** *"Əhali bu məsələyə son dərəcə diqqətlə yanaşmalıdır"*

Buna baxmayaraq, infeksiyaya yoluxmuş insandan xaric olunan tənəffüs damcıları səthlərin üzərinə düşə və orada qala bilər. ÜST bunları nəzərə alaraq, insanlara tövsiyə edir ki, əllərinizi qəpik və ya kağız pullar kimi tez-tez toxunulan istənilən səthə və əşyaya vurduqdan sonra düzgün şəkildə, müntəzəm olaraq yuyun. Əlləriniz təmiz deyilsə, gözlərinizə, ağzınıza və burnunuza toxunmayın.

O da məlumdur ki, kağız pullar müxtəlif bakteriyaların daşıyıcısı olmaq üçün əlverişlidir. Baxmayaraq ki, insanlarımız müxtəlif qoruyucu ələcəklərdən istifadə edirlər, ancaq yenə də kartla ödəniş etməyə üstünlük verilsə yaxşı olar. Aparılan müşahidələr göstərir ki, əhalinin əlindəki vəsaitlərin kartlara yerləşdirilməsi çox zəruridir. Bu baxımdan nağdsız ödənişlərə üstünlük verilməsi daha məqsədəuyğundur. Bütün bunlara baxmayaraq, nəzərə alsaq ki, Azərbaycanda nağd hesablaşmaların çəkisi çox böyükdür, xüsusən də fiziki şəxslər əsasən nağd hesablaşmalara üstünlük verirlər, o zaman bu, hansı risqlər yarada bilər?

Məsələyə münasibət bildirən tibb elmləri doktoru, professor Adil Qeybullanın sözlərinə görə, əhali bu məsələyə son dərəcə diqqətlə yanaşmalıdır: "Mümkün olduğu qədər nağdsız hesablaşmalara üstünlük verməlidir. Çünki həqiqətən də nağd hesablaşmalar müəyyən risqlər yarada bilər. Bu gün Azərbaycanda nağdsız hesablaşmalarda müəyyən problemlər var. Çünki bizdə bu sistem hələ tam oturuşmayıb. Üstəlik, əhali əsasən nağd hesablaşmalara üstünlük verir. Düzdür, banklarda kart sistemi geniş yayılıb, amma əhalinin buna marağı elə də böyük deyil. Hesab edirəm ki, bütün bunlarla bağlı bir sıra kompleks işlər görülməlidir. O cümlədən, maarifləndirmə işi gücləndirilməlidir. Düzdür, hazırda COVID-19 virusunun kağız pullar vasitəsilə ötürüldüyü barədə əsaslı faktlar, sübutlar yoxdur. Ancaq bu o demək deyil ki, bununla bağlı risq yoxdur. ÜST bununla bağlı xəbərdarlıq edirsə, deməli, diqqətli olmaq lazımdır".




***Vidadi ORDAHALLI***

**Azərbaycanda koronavirusla bağlı ölkə boyunca "sosial izolyasiya" tədbirləri elan olunub. Buna görə bütün kütləvi tədbirlər, o cümlədən, mədəni-idman tədbirləri təxirə salınıb.**

*”Vətəndaşlar onlayn alış-veriş zamanı hər hansı fırıldaqçılıqla qarşılaşmamaq üçün...”*

# Mağazaların onlayn satışı çoxalıb, ancaq yeni "bəla" gəlib - kartlardan pul oğurlanır

**Günel Gözəlova:** *”Karantin rejimi ilə əlaqədar bir çox mağaza onlayn satışa keçib”*



Nazirlər Kabineti yanında Operativ Qərargahın məlumatına əsasən, ölkədə fəaliyyət göstərən dükan və bütün iaşə obyektlərinin fəaliyyəti karantin bitənə qədər dayandırılıb. Bu müddət ərzində əhali ehtiyaclarını təmin etmək üçün onlayn alış-verişə üstünlük verir.

Qeyd edək ki, bir çox dükanda onlayn alış-veriş tətbiq edilirdi. Karantin dönəmində isə əksər dükan onlayn alış-verişdən istifadə etməyə başladı. Onlayn alış-veriş zamanı bəzi problemlər yaranıb. Belə ki, iri şirkətlər alıcıların informasiya təhlükəsizliyini təmin etsələr də, bu sahədə yeni olanlar və digər kiçik mağazalardan alış-veriş zamanı bəzi problemlər yaşanır. Bəzən vətəndaşların kart hesabından pul oğurlanması müşahidə edilir. Onlayn alış-verişə tələbin artması ilə internet vasitəsilə pul qazananların sayı artıb.

Məsələ ilə bağlı fikir bildirən Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin mətbuat katibi Günel Gözəlova dedi ki, karantin rejimi ilə əlaqədar bir çox mağaza onlayn satışa keçib: "Vətəndaşlar onlayn alış-veriş zamanı hər hansı fırıldaqçılıqla qarşılaşmamaq üçün mütləq qaydada bəzi qaydalara əməl etməlidirlər. Hazırda ən geniş yayılan internet fırıldağı fişhin üsuludur. Vətəndaşlara göndərilən spam mesajlar vasitəsilə şəxsi məlumatlar oğurlanır. Buna görə də tanış olmayan heç bir mənbədən gələn məlumatı açmaq tövsiyə olunmur".

G.Gözəlova onu da vurğuladı ki, onlayn dələduzluqla qarşılaşan vətəndaşlar Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "qaynar xətt"inə və ya sosial media hesablarına müraciət edə bilər.

*Günel CƏLİLOVA*

**Məlum olduğu kimi, Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarı ilə 14 mart 2020-ci il saat 00:00-dan etibarən ölkə ərazisində toy məclislərinin keçirilməsi qadağan edilib. Kütləvi məclislərin dayandırılmasına səbəb isə bütün dünyanı ağuşuna alan koronavirusdur.**

*”Gələcəkdə şadlıq saraylarında, eləcə də rayonlarda təşkil olunan ”palatka” toylarında...”*

# Restoranlar mayın 4-dən sonra toy dəvətlərinə başlayıb - hardan bilirsiniz karantin uzadılmayacaq...

**İlqar Hüseynli:** *”Karantin bitəndən sonra belə bir müddət şadlıq saraylarında toy məclislərinin keçirilməsi dayandırılmalıdır”*



Artıq iki aya yaxındır ölkədə karantin rejimi tətbiq olunub. Karantin rejiminin tətbiqi sayəsində son günlər koronavirusa yoluxanların sayı ötən həftələrlə müqayisədə azalıb. Açıqlanan son statistik rəqəmlərə əsasən, 44 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb, 74 nəfər müalicə olunaraq evə buraxılıb.

Statistik rəqəmlərdən aydın olur ki, son zamanlar adıçəkilən virusa yoluxanların sayı azalmağa doğru gedir. Bəzi şəxslər də hesab edirlər ki, koronavirusa yoluxanların sayının azalması ilə sərt karantin rejiminə son qoyulacaq və onlar əvvəlki fəaliyyətlərinə davam edəcəklər.

Ölkədə fəaliyyət göstərən şadlıq evlərinin əksəriyyəti mart-aprel aylarında toylarını təxirə salmış şəxslərlə əlaqə saxlayaraq qarşıdakı aylar üçün müraciət etmələrini bildiriblər.

Restoran sahiblərinin sözlərinə görə, əvvəlki aylara təyin olunan toyların tarixi iyun, iyul, avqusta çəkilib. Bundan başqa, tarixən Azərbaycanda may ayında toy etməmək adəti var. Bu dəfə isə may ayının böyük hissəsi Ramazan ayına təsadüf edir. Bu səbəbdən də şadlıq saraylarının rəhbərləri bu ayda ciddi aktivlik gözləmirlər. Amma yenə də karantin rejimi başa çatdığı təqdirdə xüsusilə tələsən cütlüklərin müraciət edə biləcəyini bildirirlər: "Kim istəsə, gəlib mayın 4-dən sonraya toy təyin edə bilər. Amma karantin davam edərsə, bu zaman vaxt dəyişəcək. Ola bilər ki, karantin daha 2 həftə də uzadılsın. Yəni bu ehtimal da var. Mayın 4-nə kimi biz də qadağanın davam edib-etməyəcəyini biləcəyik. Necə ki, bir neçə gün öncə karantin müddətinin yenidən artırılacağı açıqlandı, bu dəfə də öncədən bir məlumat veriləcək. Artırılmasa, elə orucluqda da toy edə bilərsiniz".

Restoran sahibləri ümid edirlər ki, mayın 4-ü karantin bitəcək və onlar əvvəlki həyatlarına geri dönəcəklər. Ancaq şadlıq saraylarının rəhbərləri unudurlar ki, karantinin uzadılıb-uzadılmayacağı hələ məlum deyil. Maraqlıdır, bəzi restoran sahiblərinin bu çağırışları nəyə əsaslanır, onlar nədən əmindirlər ki, karantin uzadılmayacaq?

Onu da qeyd edək ki, karantinin müddəti uzadılmasa belə, əksər ekspertlər toyların kütləvi şəkildə keçirilməsinin tərəfdarı deyil. Bildirilir ki, restoran toyları yoluxma mənbəyi kimi təhlükəli məkan sayılır. Bu səbəbdən də ekspertlər hesab edirlər ki, koronavirus təhlükəsi ta sovuşmayana qədər ölkədə toy məclislərinin keçirilməsi düzgün deyil.

**Sosial sahə üzrə ekspert İlqar Hüseynli bildirdi ki, karantin bitəndən sonra belə bir müddət şadlıq saraylarında toy məclislərinin keçirilməsi dayandırılmalıdır: "Yaxşı olar ki, gələcəkdə şadlıq saraylarında, eləcə də rayonlarda təşkil olunan "palatka" toylarında dezinfeksiya tədbirləri gücləndirilsin. Toylar keçirilərkən müəyyən məhdudiyyətlər tətbiq etmək olar. Məsləhətdir ki, qonaq sayı azaldılsın. Bununla yanaşı, insanların özündə də daxili mədəniyyət olmalıdır. Qızdırması, soyuqdəyməsi olan, hətta adi qripə yoluxmuş xəstə insanlar məclislərə qatılmamalıdırlar".**

*Günel CƏLİLOVA*

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Respublika Xatirə Kitabı redaksiyası ilə "Bakı-xəbər" qəzetinin birgə layihəsi əsasında "Şəhidlər ölməz, Vətən bölünməz" seriyasından "İgid ömrü" adlı növbəti kitabı çapa hazırlayırıq. Kitab Azərbaycanın Milli Qəhrəmanı Füzuli Salah oğlu Rüstəmovun vətənpərvərlik nidalı həyat, döyüş, qəhrəmanlıq yollarından bəhs edir.**

# İgid ömrü

## (Səkkizinci yazı)



*(Əvvəli ötən saylarımızda)*

Gəlinə üç güllə vurdular, gəlin qayadan uçaraq yıxılıb düşdü aşağıya. O gəlin indi də yaşayır. Bir az keçdi. Bir də gördük yuxarıdan Qaraqaya istiqamətini güllə yağışına tutdular. Sən demə, bunlar Qatır Məmmədin (Yaqub Rzayevin) dəstəsi imiş. Biz də elə bilirik ki, ermənilərdi. Başımıza tökülür güllələrin zərbindən torpaq, qar topaları-filan. Bir xeyli atdılar. Gördüm ermənilərə çaxnaşma düşdü.

Mən erməni dilini təmiz bilirəm. Eşitdim öz aralarında danışırlar ki, bütün Ağdam hücuma keçib, biz indi neyləyək?! O tərəfdən onlara dedilər, əsirləri götürüb ərazidən çıxsınlar. İnanın ki, aparılan əsirləri böyrümüzdən keçirirdilər, əlimizi ata bilsəydik tutacaq qədər yaxın idilər. Onları apardılar, amma bir azca çönüb baxsaydılar, bizi də görərdilər. Amma bizi Allah saxladı. Bu məqamda cibimdən Seyid Lazım ağanın şəklini çıxarıb ondan nicat diləmişəm. Əsirləri aparandan sonra bir erməni qalmışdı, o da ora-bura atəş aça-aça gedirdi. Əlimdəki limonkanın birini buna tərəf atdım. Amma görünür, taktika keçmiş erməni idi, tez uzandı yerə. Süründüm ki, silahını götürüm. 3-4 metr sürünmüşdüm, bir də gördüm durdu qaçdı. O, yəqin unamadı (təxminən "anlamadı" deməkdi. Bu söz azərbaycanlıların vaxtilə çox işlətdiyi ifadədi - N.Z.) burda adam ola bilər, bəlkə də elə bildi minomyotdu-nədi. Həm də yəqin tək olduğuna görə qaçıb getdi. Güllə səsləri kəsiləndə baxdım ki, bir qız uşağı "ay nənə" deyə-deyə qadının üzərində ağlayır. Bir nəfər ona yaxınlaşanda bildim ki, azərbaycanlılar imiş meşədən ermənilərə atan. Əvvəl elə bildim yenə ermənilərdi, ehtiyat elədim bayaqkının təkrarlanacağından, yanımda da, dediyim kimi, nə qədər arvad-uşaq, bacım uşaqları, bacılarım, yoldaşım, görün bu halı keçirmək o vəziyyətdə nə deməkdirdə... Sonra görkəmindən tanıdım ki, yox, bizimkilərdi, Şelli kəndinin camaatıdı. Eləcə kolluqdan çağırdım ki, qardaş, bizə də kömək edin. Dedi tez ol gəl. Dedim tək deyiləm, arvad-uşaq da var. Bunu eşidən kimi tökülüb gəldilər, hərəsi bir uşağı, bir qadını götürdü, bizi çıxartdılar. Yəni biz belə çıxdıq. Ardımızca da o biriləri gəldi. Kənd camaatı hamısı məni tanıyırdı. Gördülər ki, mən keçdim, onlar da ürəklənib, inanıb Şelli camaatına tərəf gəlməyə başladılar. Bu zaman ermənilər də dediyim kimi uzaqlaşmışdılar. Amma biz şosse yolu keçəndə onlar uzaqdan - hündürlükdən yenidən həmin yolu atəşə tutdular. Sadəcə uzaqda idilər deyə, bu dəfə ölüm-itim olmadı. Beləcə gəlib özümüzünkülərin yanına çatdıq.

### Ona həqiqətən Azərbaycanın Milli Qəhrəmanı adı halaldı

**- Füzuli ilə bağlı daha hansı məqamları xatırlayırsız?**

- Çoxlu əməliyyatlar həyata keçirmişik rəhmətliklə. Bir dəfə üçümüz bir yerdə, Füzuli, mən, bir də Felmar Rzayevlə, deməli, alma bağında güddük, güddük bir yaşlı erməni kişini tutduq. Elə orda da güllələdik. Bir dəfə isə hələ mən Həsənabadda yaşayan zaman bir erməni var idi, gəlib "Villis"dən düşürdü, arvad-uşağın yanında özünü tərbiyəsiz aparırdı.

**- O zaman siz Füzulini tanıyırdız? Həsənabada da gəlib-gedirdi Füzuli?**

- Əlbəttə tanıyırdım, əlbəttə gəlib-gedirdi Həsənabada. Hə, o erməni gəlib kənddə söyüşlə danışırdı. Arvadlar bizə yalvarırdılar ki, dinməyin, qətiyyən dinməyin, sizi tutarlar. Axı buna nə təhər dinməyəsən, nə təhər dözəsən?! Günlərin bir günü əlimdə təklülə tüfənglə qırqovul vurmağa gedirdim, birdən maşın səsi eşidib gizləndim. Gördüm hə, ermənilərdi, siqaret damaqlarında saymazyana şəkildə, həmin erməni də bunlarla. Bunları yadımda saxladım. Gəldim rəhmətlik Füzuliyə dedim ki, bəs vəziyyət belədi. Fikirləşmədən dedi ki, getdik. Nə isə, gəlib izlədik yenə həmin "Villis"i. Tüfənglə güllələdik bunları. Maşın gedib-gedib aşdı. Qaçdıq gəldik kəndə. Gördük kənddə hamının canına vəlvələ düşüb. O ora qaçır, bu bura qaçır, artıq bildik məsələ nə yerdədi. Dedik qaçaq kənd camaatına qoşulaq ki, bizdən şübhələnməsinlər. Orda eşitdik ki, ikisi ölüb.

Sonra bir gün Füzuli yox idi, Felmarla mən getdik laboratoriyanı partladaq. Gəldik pəncərədən gördük ki, iki erməni konservadan yeyib araqdan içib yatıb. Neyləyək, götürdük deşikdən fitili saldıq, necə partladısa içəri, bütün ətraf silkələndi. Qaçıb gəldik. Evdə gördük Xankəndinin televiziyasında laboratoriyanın partlamasından danışırlar, əclafların biri ölüb, biri isə sağ qalmışdı. Jurnalist bu sağ qalanı danışdıranda gördük deyir ki, biz yemək yeyirdik, birdən partlayış oldu. Halbuki yalan deyirdi, araqdan vurub yatmışdılar.

**- Ancaq mobil döyüşləriniz olmayıb. Batalyona qoşulmuzduz siz də?**

- Qoşulmuşduq. Ancaq batalyonun da cüzi silahı var idi. Batalyonun işi postları qorumaq, bir də ermənilər atanda cavab verməkdən ibarət idi. Ya bir də görürdün ki, Xocalının hansısa tərəfindən şəhərə soxulmaq istəyirdilər, biz də səngərlərdən atıb onları geri oturdurduq.

**- Bir sözlə, elə ancaq əsl özünümüdafiə - müdafiə batalyonu olmusuz. Füzuli ilə başqa yoldaşlığınız da olubmu?**

- Çox olub. Bəzilərini unutmuşam. Bir gün Zaminlə doqquz erməni ilə üzbəüz qalmışdım. Onu çox çətinliklə geriyə qaytara bildim. Düz ermənilərin üstünə gedirdi. O adamda, vallah, yumşaq desək, nə qorxu, nə həyəcan, nə də "tormoz" var idi. Hamımız belə vəziyyətlərə düşə bilərik. Amma adam o saat ehtiyat eləyir də. Tutalım, içəridə otumuşuq, bayırda 20 nəfəri güllələsinlər. İstər-istəməz bayıra çıxmağa ehtiyat eləyərik də. Amma o adam... göz qırpmadan çıxacaqdı. Onu məndən yaxşı tanıyan olmayıb. Ona həqiqətən də Milli Qəhrəman adı halaldı.

**Adilə: "Dedilər, Füzuli dördüncü dəfə qayıdıb sizi də aparacaq"**

### Ümid BƏLƏDÇİLƏRƏYDİ...

Xocalı qətliamının törədildiyi müdhiş gecə... İnsanlar çar-naçar çıxış yolları axtarırlar. Ağdama çıxış yolu...meşələrdən çıxış yolu...dağların-qayaların arasından çıxış yolu...əsir-girov düşməməkdən çıxış yolu...ölümdən çıxış yolu... Qarlı-ayazlı gecənin yaratdığı vahiməni önləyən bircə amil var: insanlar toplum halında yola çıxıblar, təklikdə deyillər. Toplumla olmaları bir qədər təskinləşdirərdi onları. Amma ölümün təqibi bu mənəvi rahatlığı da çox görür xocalılara. Ümid qalır, yeri gələndə qeyd-şərtsiz həmkəndlilərinin harayına çatan, ölümün gözünün içinə dik baxmaqdan belə çəkinməyən BƏLƏDÇİLƏRƏ. Anasının doğmalarının, həmkəndlilərinin, bütövlükdə Azərbaycan xalqının ZAMİNİNƏ iltifat etdiyi Füzuli Rüstəmov bu bələdçilərin sırasında birincidi. Onun ölümün pəncəsindən xilas etdiyi xocalıların sayını dəqiq bilən yoxdu. Yəqin vəhşətin yaşandığı o qaranlıq gecədə Füzuli özü də bunun fərqinə varmayıb. Çünki bundan daha vacibinin ardınca yürüyürdü qəhrəmanımız: kifayət qədər zamanı itirməmək; hava işıqlanana qədər insanları Ağdamın hüdudlarına çatdırmaq; qaranlıq meşədə əksəriyyəti uşaq-qocalardan, namus-qeyrət simvolu qadınlardan ibarət bu yolçuların azaraq ermənilərə əsir düşmələrinə heç vəchlə yol verməmək; onların donub ölməsinin qarşısını almaq... Məhrumiyyətlər içərisində, üstəlik bu qədər düşüncəni vücuduna sığışdıran qəhrəmanımızın xilas etdiyi insanlarla görüşürəm. Qarşıdakı yazılarda da onlardan bir neçəsi ilə tanış olacaqsınız. İlk tapdığımsa Adilə Qənbərova oldu. Onunla söhbətimdən bəzi fraqmentləri sizlərə təqdim edirəm, əziz oxucular:

- Bizim əslimiz Xankəndidəndi. 1988-ci ildə ermənilərlə müsəlmanlar arasındakı hadisələr başlayanda çıxmışıq oradan.

**- Xankəndinin Kərkicahan qəsəbəsində yaşayırdınız?**

- Yox-yox, o vaxt Stepanakert deyirdilər, biz o şəhərdə, yəni qədim Xankəndinin özündə yaşayırdıq. Atam-anam elə oralı olub. Sonra elə oldu ki, evlərimizi yandırdılar, biz yığışıb gəldik Ağdama. Ağdamda hardasa üç aya yaxın qaldıq. Üç ayın tamamında bizi qaytardılar Dağlıq Qarabağın ərazisinə - Xocalıya. Orada bizim üçün yaxşı Fin evləri tikmişdilər.

**- Deməli, rəhmətlik Füzuli ki gətirib Fin evlərində yaşayan Xankəndi qaçqınlarına ermənilərdən yığıb gətirdiyi inəklərin südünü, ətini paylayıb, siz həmin qaçqınlardansız...**

- Bəli, süd, ət - hər şey, hər şey. Elə qoçaq oğlanıydı ki Füzuli (ah çəkir)... 1988-ci ildən 1992-ci ilin fevral ayının 26-na, Xocalı faciəsinin axşamına qədər yaşamışıq Xocalıda. Hadisə də belə başladı. 26-na keçən gecə Xocalı dörd tərəfdən mühasirəyə alındı. Atışma başladı. Atışma başlayan kimi camaat üz tutdu çaya tərəf ki, bu çayı keçib çıxsınlar meşəyə, meşə ilə gəlib yetişsinlər Ağdama.

**- Adilə xanım, Xocalının dörd bir tərəfi Dağlıq Qarabağın ərazisi idi, yoxsa, məsələn, Ağdamla, ya başqa rayonlarımızla meşələrlə, dağlarla, hər hansı sərhəd yeri var idi?**

- Yox-yox, hər tərəfi Dağlıq Qarabağın ərazisi idi. Ən yaxın yer Ağdam hesab olunurdu yenə. Xocalı elə bil ki, Ağdamla Xankəndinin tən ortasında yerləşirdi.

Mən o asfalt yolu bir dəfə getmişəm. Artıq erməni quldurlarının baş qaldırdığı zamanlar idi. Belə ki, tələbə yoldaşlarımla tələbə dostumuz, indi tanınmış jurnalist olan Hikmət Sabiroğlunun atasının yas mərasiminə getdiyimizi xatırlayıram bu yolla. O zaman 1990-cı il idi. Bu yolu getmək sonrakı müharibə zamanları ilə müqayisədə hələ nisbətən təhlükəli sayılırdı. Ermənilər avtobuslara, maşınlara hücum edirdilər. Ona görə də bizi o vaxtkı SSRİ hərbçiləri müşayiət eləmişdi yol boyu. Xatırlayıram ki, Ağdamdan sonra məşhur Qaraağacı qəbristanlığının yanından keçdik. Növbəti rastlaşdığımız məkan Əsgəran idi. Burada ermənilər yaşayırdılar. Hətta burada bir erməninin 2109 markalı maşınında arın-arxayın oturaraq bizi seyr etməsindən əsəbiləşmişdik də... Bundan sonrakı yaşayış məskəni Xocalı idi. Zənnimcə, Xocalı yol qırağından bir az kənarda yerləşirdi. Sonra Xankəndini və aşırımları adlayıb, nəhayət Şuşaya yetişmişdik. Şuşa isə başqa bir dünyanı xatırlatmışdı bizə. Bu qədər ağrı-acı, üstəlik yas mərasiminin yaratdığı hüznlü dəqiqələr belə Şuşanın havasının, təbiətinin əsrarəngizliyini, qeyri-adiliyini diqqətimizdən yayındıra bilməmişdi. Allah Sabir müəllimə rəhmət eləsin! Əgər bu yas mərasimi olmasaydı, bəlkə biz Şuşanı indi xatırladığım kimi yarımçıq da görməyəcəkdik...

### "Milli Qəhrəman adını ona gec veriblər"

Xəyallardan ayrılıb Adilə xanımı dinləyirəm:

- Xocalıda bizə qaz, işıq, yemək, geyim - hər şey vermişdilər, Fin evlərində rahat yaşayırdıq. Əvvəlcə öyrəşmək çətin idi. Amma vaxt ötdükcə vərdiş elədik və qərara aldıq ki, yaşayaq, çünki elə bura da dədə-babadan öz yerimiz-yurdumuzdu. Amma dediyim kimi, fevralın 26-na keçən gecə şəhəri üç tərəfdən mühasirəyə aldılar, bircə insanlara çıxış üçün Qarqar çayı tərəfi - meşə yolunu açıq saxlamışdılar. Bəlkə də buranı kəsməyə vaxt eləməmişdilər.

**- O yol gəlib Ağdama çıxırdı?**

- Bəli, o yol gəlib çıxırdı Ağdama. Amma meşə ilə. O yolda mənim də itənlərim olub. Olarmı onların da adlarını çəkim?

**- Əlbəttə, deyin...**

- Elə bil evlərdən çıxandan sonra mən, yoldaşım, anamgil, qardaşım, uşaqlar, bacılarım - hamımız gəldik çayın kənarına. Orda gördüm ki, mənim uşaqlarım ayaqyalın, çəkələkdədilər. Soruşdum niyə "şəpit" geyinmisiz? Dedilər, bilmirdik ki qaçacağıq. Anama dedim bizim evimiz yaxındı, mən qaça-qaça gedim bu uşaqlara ayaqqabı götürüm gəlim, meşəni rahat keçə bilsinlər. Qayıtdım gəldim o gülləbaranın altından uşaqların hərəsinə bir ayaqqabı götürdüm, hərəsinə bir gödəkçə götürdüm, təzədən qayıtdım çayın qırağına. Gəldim gördüm yoldaşımla qardaşım məni gözləyirlər, anamgil yoxdu. Soruşdum anamgil hardadı? Dedilər, polislər camaatı çaydan keçirirdi, onlara da dedik ki, keçin durun orda biz gələrik. Nə isə, biz də uşaqları götürüb keçdik çıxdıq o təpəyə, ancaq nə qədər axtarsaq da, anamgili tapmadıq. Balaca qardaşım o tərəfə baxır, yoldaşım bu tərəfə baxır, qaranlıqda nə görə bilirik ki... ancaq kimi görürük xəbər alırıq.

*(ardı var)*

***Nəzirməmməd ZÖHRABLI***
***Jurnalist-publisist***

№ 63 (4194) ■ Qiyməti: 40 qəpik

BAKI XƏBƏR

www.baki-xeber.com

23 APREL 2020-ci il

## "Nar" Xüsusi Karantin Rejiminin Tətbiqi Zamanı İcazələrin Alınması və Monitorinqi Sistemi"nə dəstək olmaqda davam edir

**"Nar" koronavirus (COVID-19) pandemiyasının ölkə ərazisində yayılmasının qarşısının alınması məqsədilə aparılan mübarizəyə dəstək məqsədilə zəruri tədbirlər həyata keçirməkdədir. Belə ki, mobil operatorun mütəxəssisləri qısa zaman ərzində "Xüsusi Karantin Rejiminin Tətbiqi Zamanı İcazələrin Alınması və Monitorinqi Sistemi"nin mobil operatorla inteqrasiyasına və abunəçilərə fasiləsiz xidmət göstərilməsinə nail olublar.**

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan Elektron Hökumətin İnkişafı Mərkəzi və Daxili İşlər Nazirliyinin birgə ərsəyə gətirdiyi sistem "Nar" tərəfindən qısa müddət ərzində test edilib və lazımi tənzimləmələr aparılıb. Nəticədə mobil operatorun abunəçiləri vətəndaşların yaşayış yerlərini tərk etmələrinə dair icazələrin alınması məqsədilə istifadəyə verilmiş "8103" qısa nömrəsindən ödənişsiz və fasiləsiz yararlana bilirlər.

Eyni zamanda, abunəçilərin "8103" xidməti ilə bağlı yarana biləcək suallarını cavablandırmaq məqsədilə "Nar" sosial media səhifələrində bir çox faydalı məlumat paylaşır. Həmçinin, abunəçi bazasına maarifləndirici SMS məlumatlarının göndərilməsi də təmin olunub.

Koronavirus pandemiyası ilə əlaqədar abunəçilərin sorğularının fasiləsiz cavablandırılması məqsədilə "Nar" müştəri xidmətləri gücləndirilmiş iş rejiminə keçib. Eyni zamanda, mobil operator xüsusi karantin rejimində abunəçilərinin evdən çıxmadan bir çox xidmətlərdən yararlanmasına dəstək olub. Abunəçilər öz sorğularını evdən çıxmadan 777 Çağrı Mərkəzi ilə yanaşı, "Nar+" mobil tətbiqi vasitəsilə də ünvanlaya bilərlər. Bununla yanaşı, 02.04.2020-ci il tarixindən etibarən abunəçilər üçün "Səyyar Nar" xidməti də təşkil edilib. Bu xidmət vasitəsilə "Nar" nümayəndəsi müştərinin ünvanına gəlir və nömrə ilə bağlı sorğunu yerində həll edir. Bundan başqa, mobil operator məsafədən nömrə satışını da həyata keçirir və müştərilərin narsim.az vebsaytı üzərindən seçdikləri nömrə birbaşa evlərinə çatdırılır.

Qeyd edək ki, "Nar" koronavirus pandemiyasının ölkədə yayılmasına qarşı aparılan tədbirlərə dəstək göstərməyi öz sosial məsuliyyəti hesab edir. Mobil operator xüsusi karantin rejimi zamanı həyata keçirilən bir sıra mühüm sosial layihələrdə aktiv iştirak etməkdədir.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 8700-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

### Elan

"M Qroup" MMC-yə məxsus №1400561381 VÖEN naməlum şəraitdə itirildiyi üçün etibarsız sayılır.

## "Bakcell" vətəndaşların sorğularını cavablandırmaq üçün "ASAN xidmət"lə əməkdaşlığı davam etdirir

**Dünyada koronavirusun yayılması ilə əlaqədar olaraq "Bakcell" şirkəti ölkəmizdə həyata keçirilən genişmiqyaslı qabaqlayıcı tədbirlərə qoşulub. Abunəçilərinin və əməkdaşlarının təhlükəsizliyini təmin etmək və bütün mümkün risqlərin qarşısını almaq məqsədilə şirkət müvafiq dövlət qurumları tərəfindən bu istiqamətdə atılan addımlara xüsusi dəstək göstərir.**

"Bakcell" Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və Daxili İşlər Nazirliyi tərəfindən yaradılan "Xüsusi Karantin Rejiminin Tətbiqi Zamanı İcazələrin Alınması və Monitorinqi Sistemi" vasitəsilə vətəndaş sorğularının tez bir zamanda cavablandırılması üçün pulsuz SMS icazəni təmin edib. Bu sistemin fəaliyyətə başlaması üçün texniki inteqrasiya tədbirləri qısa müddət ərzində həyata keçirilib. Xidmət işə başlayandan sonra isə şirkət "ASAN xidmət"lə birlikdə hər gün sistemin monitorinqini aparır. Bununla yanaşı, 8103 qısa nömrəsinə mesaj göndərilməsi ilə bağlı abunəçilərin suallarının cavablandırılması üçün şirkətin 555 Əlaqə Mərkəzi və digər müvafiq strukturları gücləndirilmiş iş rejimində çalışır. Müxtəlif mobil cihazlar vasitəsilə 8103 nömrəsinə mesaj göndərə bilməyən abunəçilərə kömək məqsədilə xüsusi videomaterial hazırlanaraq "Bakcell"in sosial media səhifələrində yerləşdirilib (videoya keçid etmək üçün bu linkə daxil olun - https://www.facebook.com/Bakcell/videos/225149435210696/) Xatırladaq ki, "Bakcell" ölkədə koronavirusa qarşı mübarizə üzrə həyata keçirilən genişmiqyaslı tədbirləri dəstəkləmək üçün bir sıra mühüm layihələr həyata keçirib. Belə ki, şirkət Koronovirusla Mübarizəyə Dəstək Fonduna 1.5 milyon manat ianə etməklə yanaşı, Azərbaycana süni tənəffüs aparatları, bədən hərarətini məsafədən ölçən xüsusi keçid-buraxılış avadanlıqları, eləcə də koronovirusa yoluxmanı yerindəcə müəyyən etməyə imkan verən 3000 ədəd ekspress-testin gətirilməsi üçün iri həcmdə vəsait ayırıb. Bundan əlavə, "Bakcell" karantin mərkəzlərində çalışan tibbi heyətə təşəkkürünü ifadə etmək üçün açıqca vasitəsilə mesajlar göndərib və bütün karantin mərkəzlərinin həkimlərinə və müxtəlif karantin mərkəzlərində karantində saxlanan vətəndaşlarımıza isə ödəmə kartları hədiyyə edib. "Bakcell" abunəçiləri öz telefonlarının ekranlarında "evdə qal" çağırışını görürlər. 1542 "qaynar xətt" nömrəsinə zənglər də bütün "Bakcell" abunəçiləri üçün tamamilə pulsuzdur. Həmçinin, "Bakcell" ölkənin bütün regionlarında onlayn satış və çatdırılma xidmətini təqdim edib, xüsusilə vacib olmadıqda, Müştəri Xidməti Mərkəzlərinə getmək əvəzinə, "Mənim Bakcellim" tətbiqetməsindən istifadəni və ya 555 Əlaqə Mərkəzinə zəng etməyi tövsiyə edib. "Bakcell" şirkəti həssas əhali qruplarına dəstək göstərmək üçün digər Korporativ Sosial Məsuliyyət təşəbbüsləri də həyata keçirir.





**Qoç** - Ailə imkanlarını və yaşam şərtlərini yaxşılaşdırmaq bu gün xüsusi maraq dairənizdədir. Lakin bəhs etdiyimiz istiqamətlərdə hansısa konrkret addımlar atmaq istəyində uğursuzluğa düçar olmaq ehtimalı böyükdür.

**Buğa** - Ailə üzvləri ilə danışmaqdan, ağıllı bildiyiniz insanlardan məsləhət almaqdan çəkinməyin. Təkrar müzakirə sizə ilkin planlara dəyişikliklər etməyə imkan verər.

**Əkizlər** - Aramlı davranış və düşüncə tərzini müvəqqəti də olsa, unudun. Operativ, çevik, cəsur olun, istək və arzularınızdan çəkinməyin. Yaxın qohumların yardımlarına tam bel bağlamağa dəyməz: belə hərəkətlər uğur gətirsə də, başağrısı yaradacaq.

**Xərçəng** - Valideynləriniz və ailə üzvlərinizlə mübahisələr mümkündür. Prinsipial məsələlərdə razılığa rəğmən, xırda məqamlarda onlar sizi anlamırlar. Ola bilər ki, mübahisələr ciddiləşsin.

**Şir** - Maliyyə işlərində problemlər mümkündür. Əgər maliyyə problemlərinizi düşünürsünüzsə, borc aldığınız pulları unutmayın. Ailə üzvləriniz etiraz etsələr də, borcu qaytarmağa can atın.

**Qız** - Gündəlik işləri yerinə yetirəndə onlardan bəzilərini orijinal şəkildə gerçəkləşdirmək istəyəcəksiniz. İstəklərinizi realaşdıranda anlaşılmazlıq və inadkarlıqla qarşılaşmağa hazır olun.

**Tərəzi** - Çalışdığınız adamlar tələblərinizi anlamayacaqlar. Ətrafdakı insanların sizi sıxışdırmağa çalışdıqlarını düşünəcəksiniz. Səhhətinizdə, müalicədə, həkimlərlə söhbətlərdə problemlər yarana bilər.

**Əqrəb** - Uzaqdakı aldamlarla əlaqələr yaratmaq, təhsil və imkanları artırmaq günüdür. Biznesdə etibarlı və nüfuzlu müttəfiqlər qazanmağa çalışın. Ətrafdakı insanlara, o cümlədən uşaqlara təsir imkanlarını artırmağa səy göstərəcəksiniz.

**Oxatan** - Demokratik və açıq olun. Təşəxxüs, lovğalıq və mənəm-mənəmlikdən uzaq qaçın. Bütün bunlar ünsiyyətə mane olacaq. Dostlar, tərəfdaşlar, müəllimlərin dediklərinə diqqətlə qulaq asın.

**Oğlaq** - İşlər üçün uğurlu gündür. Çalışdığınız kollektiv və təşkilatı uğurla təmsil edə bilərsiniz. Qatıldığınız iş və ya layihə sizə avantüra təsiri bağışlaya bilər, amma son nəticə yaxşı olacaq, kim olduğunuzu da tez başa düşəcəklər.

**Dolça** - İdeya və planları götür-qoy etmək üçün əlverişli gündür. Sizə maraqlı məlumatlar, təhlil üçün bilgi verə biləcək adamlarla əlaqə saxlayın. Doğrudur, gərəkli adamlarla əlaqə saxlaya bilməyəcəksiniz, çünki onlar bu gün sizinlə danışa bilməyəcəklər.

**Balıqlar** - Valideynləriniz sizin qohumlarınızla görüşməyinizə mane olmağa çalışacaqlar. Bəzi tanışlıqlarınız da onları təlaşlandıracaq. Qısa səfərlərdə maneələr və problemlər ola bilər, amma onlar tez həllini tapacaq.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## "Azercell" "Paycell" xidməti üzrə göndərilən sorğular üçün xidmət haqqını dayandırır!

**Lider mobil operator koronavirus (COVID-19) infeksiyası ilə mübarizə çərçivəsində növbəti addımı atır!**

Yerli bazarın lider mobil operatoru "Azercell Telekom" MMC koronavirus pandemiyası ilə əlaqədar ölkə ərazisində elan edilmiş xüsusi karantin dövründə abunəçilərinə dəstək olmağa davam edir. "Azercell" aprel ayının 10-dan etibarən "Paycell" xidməti üzrə göndərilən sorğular üçün xidmət haqqı tətbiqinin müvəqqəti olaraq dayandırıldığını bəyan edib. Xatırladaq ki, "Paycell" xidməti çərçivəsində istənilən Fakturasız Xətt (SimSim) nömrənin balansına 0.2 AZN, 0.5 AZN və ya 1 AZN vəsaiti hədiyyə qismində yükləmək mümkündür. Bu təklifdən yararlanmaq üçün SMS mətnində vəsaiti qəbul edən nömrəni qeyd etməklə, müvafiq olaraq 9204, 9200 və ya 9202 qısa nömrələrinə mesaj göndərmək kifayətdir.

Xidmət haqqında ətraflı məlumatla https://www.azercell.com/az/personal/services/zero_balance_options/paycell/ səhifəsinə keçid edərək tanış ola bilərsiniz.

"Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə xəbərdar olmaq üçün bizi rəsmi sosial media hesablarımızdan izləyin!

"Facebook": https://www.facebook.com/azercell

"Instagram": https://www.instagram.com/azercell

"LinkedIn": https://www.linkedin.com/company/azercell

"Twitter": https://twitter.com/Azercell

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

*Hazırladı: Namiq QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.